www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 noyabr 2017-ci il Çərşənbə axşamı № 248 (6862) Qiyməti 60 qəpik

**Xəbər**

**"Qızımı vurub öldürən "JEEP"in sürücüsünü gizlədirlər"- ana kömək istəyir**

yazısı səh.13-də

**Gündəm**

**Dəm qazı yenə can almağa başladı**



Gözəgörünməz qatil"dən necə xilas olaq...

yazısı səh.13-də

**Muqabeyə və Mütəllibova tanınan oxşar haqlar**

yazısı səh.5-də

**Sabirabad Sənaye Məhəlləsi yaradılır**

yazısı səh.2-də

**"Azərpoçt" MMC-nin rəhbəri dəyişdi - səbəb...**

yazısı səh.3-də

**İtalyada TAP layihəsinə qarşı sabotajın pərdəarxası...**

yazısı səh.6-da

**Həbsdəki general son söz dedi - Elçin Quliyev sərt danışdı...**

yazısı səh.3-də

**"Ermənistan Aİ ilə münasibətlərini Rusiyanın razılığı ilə inkişaf etdirir"- politoloq**

yazısı səh.9-da

**Azərbaycan Avropa Şurasına ildə nə qədər üzvlük haqqı ödəyir?**

yazısı səh.6-da

**Tramp Güləni təhvil verəcəkmi...**

yazısı səh.10-da

**İŞİD "zəif bənd" axtarışında-Misir terrorunun gizlinləri**

yazısı səh.12-də

**Yadplanetlilərlə bağlı yeni iddialar - onlar yerə enir, baxır və gedirdlər...**

yazısı səh.14-də

**Rusiyada Azərbaycan tərəfdarlarının sayını artırmağın yolları...**

yazısı səh.11-də

## Avropadan "ikili standart" mehi

# YAQLANDDAN MOSKVAYA "QUYRUQ", BAKIYA "YUMRUQ"...

Azərbaycanla ultimativ dildə danışan Avropa Şurası baş katibinin Kremlə qəfil reveransının səbəbi; Krıma görə Rusiyaya tətbiq edilən sanksiyalar götürülə bilər; Bakı üçün kritik gün ərəfəsində təzadlı gəlişmə...




yazısı səh.8-də

## Rusiyadakı diaspor rəhbəri od püskürdü: "Bizə düşmən lazım deyil!.."

**Fazil Qurbanov:** "Bu, Putinin səlahiyyətində olan məsələ deyil axı"; "Kim sənə səlahiyyət verib ki, təşkilatın adından danışırsan?"

yazısı səh.7-də



*Fərəc Quliyev:*

**"Artıq biz o "böyük gücləri" kiçik görməliyik"**

yazısı səh.5-də



**Eldar Mahmudovu növbəti dəfə "öldürdülər"**

yazısı səh.3-də



*Siyavuş Novruzov:*

**"Yanvardan YAP-ın bütün strukturları seçki hazırlığına səfərbər olunacaq"**

yazısı səh.4-də



# Prezident Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqda sərəncam verdi

**Prezident İlham Əliyev Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında sərəncam imzalayıb. "Azərtac"ın verdiyi məlumata görə, sərəncam sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə imzalanıb.**

Sərəncamla Sabirabad rayonunda Sabirabad Sənaye Məhəlləsi yaradılır.

2. Müəyyən edilsin ki:

2.1. kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədi ilə Sabirabad Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılır;

2.2. Sabirabad Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili və tənzimlənməsi "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə həvalə olunur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Sabirabad Sənaye Məhəlləsinin fəaliyyəti üçün Sabirabad rayonu ərazisində 20,3 hektar torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilərək sənaye təyinatlı torpaqlar kateqoriyasına keçirilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamın 3.1-ci bəndində nəzərdə tutulmuş torpaq sahəsinin icarəyə vermək hüququ ilə "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin daimi istifadəsinə verilməsini dörd ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Sabirabad Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su təchizatı, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını, eləcə də Məhəllənin işinin təşkilini və tənzimlənməsini, o cümlədən iştirakçıların dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Sabirabad Rayon İcra Hakimiyyəti bu Sərəncamın 3.1-ci bəndində nəzərdə tutulmuş torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırsın.

# Lənkəranda toy yasa döndü



**Lənkəran rayonundan Neftçalaya toya gələn şəxs qəfildən ölüb.**

Musavat.com report-a istinadən xəbər verir ki, hadisə rayonun Aşağı Surra kəndində yerləşən "Kür-Xəzər" şadlıq sarayında qeydə alınıb.

Belə ki, Lənkəran rayonunun Mamusta kənd sakini, 1958-ci il təvəllüdlü Arif Vəli oğlu Bəqiyevin toy mərasimində halı pisləşib və o, özündən gedib. Hadisə yerinə təcili tibbi yardım maşını çağırılıb.

A.Bəqiyev Salyan Rayon Mərkəzi Xəstəxanasına aparılarkən yolda dünyasını dəyişib.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# Azay Quliyev Vyanada məruzə ilə çıxış edəcək

**Milli Məclisin deputatı, ATƏT-in Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun dəvətilə 27-29 noyabr 2017-ci il tarixlərində Avstriyanın paytaxtı Vyana şəhərində səfərdə olacaq. Bu haqda Milli Məclisin mətbuat xidməti məlumat yayıb.**



Səfərin məqsədi ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Hofburqda təşkil etdiyi "Seçki müşahidəsi və seçki proseslərində texnologiyanın rolu" mövzusunda seminarda iştirak etməkdir. Quruma üzv olan 57 ölkənin nümayəndə heyəti, parlament assambleyalarının təmsilçiləri, seçki ekspertləri, seçki idarəetmə orqanlarının və komissiyaların üzvləri, beynəlxalq təşkilatlar, seçki monitorinqini həyata keçirən QHT-lərin iştirak etdiyi tədbirdə seçkiyə aid qabaqcıl təcrübə və çatışmazlıqlar, müasir texnologiyalardan istifadə etməklə seçki prosesini təkmilləşdirmək və digər məsələlər müzakirə ediləcəkdir. ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev seminarda "Demokratik seçkilərin keçirilməsi üçün ATƏT-in öhdəlikləri, beynəlxalq vəzifələri və standartları" haqqında məruzə ilə çıxış edəcək, ATƏT-in seçki müşahidə missiyası ilə bağlı təcrübəsini bölüşəcək və iştirakçıların suallarını cavablandıracaq.

Qeyd edək ki, Azay Quliyev 12 ölkədə ATƏT PA-nın seçki müşahidə qrupunun üzvü, Monteneqro və Makedoniyada ATƏT PA-nın Seçki müşahidə missiyasının rəhbəri, Qırğızıstanda isə Beynəlxalq Seçki Müşahidə korpusunun rəhbəri və ATƏT-in xüsusi koordinatoru olub.

❑ **Musavat.com**



# "Azərbaycanla danışıqlar indiyədək yaxşı irəliləyib" - Aİ nümayəndəsi

**"Azərbaycanla Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqlar bu günə kimi çox yaxşı irəliləyib".**

Bu sözləri APA-ya açıqlamasında Avropa İttifaqı Xarici Əməliyyatlar Xidmətinin Rusiya, "Şərq Tərəfdaşlığı", Mərkəzi Asiya və ATƏT üzrə direktoru, Azərbaycanla yeni saziş üzrə danışıqların Aİ-dən olan nümayəndə heyətinin rəhbəri Luk Devin deyib. Bununla yanaşı, o bildirib ki, görülməli bir çox iş hələ qalıb: "Azərbaycan hökumətinin hədəfi öz iqtisadiyyatını diversifikasiya etməkdir. Biz siyasi, sektoral əməkdaşlıq, iqtisadiyyat və ticarət bölmələri üzrə danışıqlar aparırıq. Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olmadığı üçün bir sıra çətinliklər yaranır. Biz danışıqlara sadiq olaraq qalırıq".



# Həbs-qətimkan tədbirinin seçilməsi şərtləri dəyişdirilir

**Azərbaycanda şəxsin barəsində həbs-qətimkan tədbiri növünün seçilməsi şərtləri dəyişdirilir. APA-nın məlumatına görə, bununla bağlı Azərbaycan prezidenti tərəfindən Cinayət-Prosessual Məcəlləsinin 155.3-cü (155.3. həbs və ona alternativ qətimkan tədbirləri yalnız aşağıdakı təqsirləndirilən şəxs barəsində tətbiq oluna bilər) maddəsinin dəyişdirilməsi təklif olunur.**

Yeni formada verilən maddəyə görə, həbs-qətimkan tədbiri:

- bu Məcəllənin 155.1-155.1.3-cü maddələrində nəzərdə tutulmuş hərəkətlərin qarşısını almaq məqsədi ilə, 2 ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;
- cinayət prosesini həyata keçirən orqandan gizlənməsinin qarşısını almaq məqsədi ilə, 2 ilədək müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;
- əvvəllər seçilmiş digər qətimkan tədbirinin şərtlərini pozmuş şəxsə və ya hökmün icrasını təmin etmək məqsədilə, barəsində azadlıqdan məhrum etmə növündə cəza təyin edilmiş şəxsə tətbiq olunacaq.

**Maddənin hazırda qüvvədə olan variantı isə belədir: "Həbs və ona alternativ qətimkan tədbirləri yalnız aşağıdakı təqsirləndirilən şəxs barəsində tətbiq oluna bilər:**

- 2 (iki) ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;
- bu məcəllənin 155.1.1 və 155.1.3-ci maddələrində nəzərdə tutulmuş hərəkətlərin qarşısını almaq üçün 2 (iki) ilədək az müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə".

Layihə Milli Məclisin dekabrın 1-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.



# Doroxin Rusiyanın Azərbaycandakı səfiri vəzifəsindən azad olundu

**Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin bu vəzifədən geri çağırılıb.**

APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, prezident Vladimir Putin V. Doroxinin vəzifədən azad olunması ilə bağlı fərman imzalayıb.

Xatırladaq ki, V. Doroxinin səlahiyyət müddəti başa çatıb. O, 2009-cu ilin fevralında Azərbaycana səfir təyin olunmuşdu.

# Hacı Qalibin oğlunun məhkəməsində zərərçəkmiş ifadə verdi

**Nəsimi Rayon Məhkəməsində sabiq deputat Hacı Qalib Salahzadənin oğlu Əlihüseyn Salahzadənin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

APA-nın məlumatına görə, hakim Şəlalə Həsənovanın sədrlik etdiyi iclasda zərərçəkmiş Elbəy Mirzəyev çıxış edib. O, hər hansı şikayətinin olmadığını deyib.

Proses noyabrın 30-da davam edəcək.

APA-nın məlumatına görə, hakim Şəlalə Həsənovanın sədrlik etdiyi iclasda Ə. Salahzadə ötən iclasda müqavilə bağladığı vəkili Lalə Mansurovadan imtina edib.

Qeyd edək ki, zərərçəkmiş Elbəy Mirzəyev hər hansı şikayət və tələbinin olmadığını deyib və şikayət ərizəsini geri götürüb.

Ə. Salahzadə bir müddət əvvəl həbs edilib. Cinayət Məcəlləsinin 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla onun barəsində Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Ə. Salahzadə "Azərsu" ASC-nin əməkdaşını döyməkdə təqsirli bilinir.

# Tatarıstanda azərbaycanlı iş adamı həbs olundu

**Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərində azərbaycanlı iş adamı həbs olunub.**

Kazan şəhər Sovetski rayon polisi tərəfindən saxlanılan azərbaycanlı iş adamı, əslən Azərbaycanın Cəlilabad rayonundan olan Ağayev Namiq Aydın oğludur.

Rayon məhkəməsi onunla bağlı 2 aylıq həbs-qətimkan tədbiri seçib.

N.Ağayev şəhərdə tikinti sektorunda çalışan iş adamları arasında baş vermiş silahlı insidentdə iştirakda ittiham olunur.

Rusiya Federasiyası İstintaq Komitəsinin yerli bölməsi tərəfindən istintaq aparılır.

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun növbəti dəfə ölüm xəbəri yayılıb. Bu dəfə də sabiq naziri ürək tutmasından "öldürüb"lər. Bu barədə xeber-var.net saytı məlumat yayıb. Saytın verdiyi xəbərdə deyilir: "Milli təhlükəsizlik naziri Eldar Mahmudov ürək tutmasından dünyasını dəyişib. Vəzifədən çıxdıqdan sonra stress, fikir, qorxu keçirən Mahmudov ürək xəstəliyi tapıb və bu xəstəlikdən vəfat edib. Bununla bağlı hər hansı başqa mənbədən məlumat verilməyib".**

# Eldar Mahmudovu növbəti dəfə "öldürdülər"

## Sabiq nazirin ölüm xəbərləri kimə və nə üçün lazımdır?

Bu sabiq nazirin ilk ölüm xəbəri deyil. Vəzifədən çıxarılandan sonra belə xəbərlər mətbuatda ara-sıra peyda olub. Eldar Mahmudovun ölüm xəbərini əsasən ölkənin aztirajlı saytları yayıb və yaymaqdadırlar.

Həmin saytlarda əvvəllər yayılan məlumatlarda deyilirdi ki, Eldar Mahmudovun yaşadığı bağ evində üstünə təcili tibbi yardım gəlib. Yaxın ətrafı həbs edildikdən sonra hər gün qorxu-stress içində yaşayan Eldar Mahmudov düşdüyü durumdan içki vasitəsilə çıxmağa çalışırmış. İçki aludəçisinə çevrilməsi də onun ürəyində olan problemləri artırıb. Sabiq nazirin səhhətində yaranan ciddi problemlər onun qəfil ürəktutmasına yaxalanmasına səbəb olub. Halı pisləşən Eldar Mahmudova ilkin tibbi yardım göstərilsə də onu ölümün pəncəsindən qurtarmaq mümkün olmayıb. Eldar Mahmudovun öldüyü haqda yayılan bu xəbəri hələlik başqa mənbələrdən, eləcə də rəsmi strukturlardan dəqiqləşdirmək mümkün olmayıb. Bununla belə, keçmiş milli təhlükəsizlik nazirinin faktiki olaraq ev dustaqlığı şəraitində saxlanıldığı və düşdüyü depressiya şəraitində hər gün içdiyi haqda daha əvvəl də məlumatlar daxil olurdu. Mənbələrə görə, Mahmudov həddən artıq spirtli içki içirdi və dəfələrlə bu səbəbdən halı pisləşirdi. Eldar Mahmudovun barəsində hər 2-3 aydan bir ölüm xəbərinin yayılmasını təsadüf hesab etmək sadəlövhlük olardı.



Belə anlaşılır ki, yayılan xəbərlər sabiq nazirin özünün də maraqlarına uyğundur, habelə onu qoruyan əllərin də maraqlarını ifadə edir. Maraqlıdır ki, bu məlumatlar E.Mahmudovun cinayət xarakterli konkret əməllər törətməsi haqda həbsdə olan MTN generallarının onun əleyhinə ifadələr verəndən sonra ortaya çıxır. Sanki E.Mahmudov bu şəkildə, kiçik tirajlı media üzərindən olsa belə onu himayə edənlərə "öldüm, infarkt oldum" şəklində ismarışlar göndərir, dəstək vermələrini, köməklik göstərmələrini, hərəkətə keçməli olduqlarını bildirir. Nə də olmasa, ölüm xəbəri kimi ildırım sürəti ilə yayılan ikinci bir xəbər yoxdur. Yəni bu xəbərə kimsə "eşitmədim, məlumatsızam" şəklində reaksiya verə bilmir. Söhbət Eldar Mahmudovdan gedirsə, xəbərin qısa zamanda böyük auditoriyanı əhatə edəcəyi də əvvəldən bəllidir. O da mümkündür ki, sabiq nazirin ölüm xəbərini bilərəkdən yayıb qəfil ölümünə kömək oluna biləcəyini işarə edib onu təzyiq altında saxlayırlar.

Nəzərə çatdıraq ki, növbəti "ölüm" xəbəri həm də Eldar Mahmudov prokurorluqda 3 dəfə dindiriləndən sonra yayıldı.

Görünən odur ki, Eldar Mahmudovun ətrafında gedən proseslər artıq gizli şəkildə aparılmır. Sabiq nazir 2 ildən artıq bir müddətdə müqavimət göstərib yaxasını istintaqçıların əllərindən kənar saxlaya bilsə də, artıq vəziyyət dəyişib. General Elçin Quliyev açıq mətnlə məhkəmədə dedi ki, iş yoldaşları olan Malik Mustafayevin qardaşı Mətləb Mustafayevin evinə silahı Eldar Mahmudovun göstərişi ilə qoyublar. Çox ciddi ittiham olmaqla yanaşı, sabiq nazirin qandallanması üçün əsas verən bir ifadədir. Qalır Eldar Mahmudovu özünün tabeçiliyində olmuş, onun əmrlərini yerinə yetirən generalı ilə üzləşdirib həbs etmək. Əslində isə sabiq nazirin həbsi üçün ortalıqda çox ciddi faktlar, dəlillər var.

Belə bir durumda sabiq nazirin ölüm xəbərlərinin bir-birini əvəzləməsi Eldar Mahmudovun dərhal ciddi nəzarətə götürülməsini diqtə edir. Sabiq nazir "MTN işi"nin əsas fiqurudur. Bu baxımdan onun dünyasını dəyişməsi bir çox tərəflərin maraqlarına cavab verir. E.Mahmudov həqiqətən qəfil öləcəksə, onun rəhbərliyi altında baş verən cinayətlərin izi də itib batacaq. Bunda da maraqlı qüvvələr olmamış deyil.

❑ **E.HÜSEYNOV**

# "Azərpoçt" MMC-nin rəhbəri dəyişdi - səbəb...

## Ülvi Mansurov öz ərizəsi ilə işdən çıxıb; onun səlahiyyətlərini icra edən Sübhan Kazımov kimdir?

**"Azərpoçt" MMC-nin baş direktoru, bəstəkar Eldar Mansurovun oğlu Ülvi Mansurovun işdən çıxması ilə bağlı ziddiyyətli məlumatlar yayılıb.**



APA MMC-dəki mənbəyə istinadən bildirib ki, Ü.Mansurov öz ərizəsi ilə tutduğu vəzifədən kənarlaşıb.

"Ülvi Mansurov oktyabr ayının 1-dən vəzifəsini öz xahişi ilə tərk edib", - deyə, mənbə vurğulayıb. Hazırda onun yerinə təyinat yoxdur. Baş direktor vəzifəsinin icrası müvəqqəti olaraq Sübhan Kazımova həvalə olunub.

"Azərpoçt" MMC-nin mətbuat katibi Günel Gözəlova isə bildirib ki, onun Ü.Mansurovun işdən çıxması barədə məlumatı yoxdur.

Maraqlıdır ki, Ü.Mansurov "Azərpoçt" MMC-yə bu ilin mart ayının 31-də rəhbər təyin edilib. Amma bu 8 ay ərzində "Azərpoçt" MMC-nin rəsmi veb-səhifəsində rəhbər şəxslər arasında Ü.Mansurovun adı olmayıb. Qurumun rəsmi saytında baş direktorun vəzifəsini Sübhan Kazımovun icra etdiyi göstərilib.

Hələ o zaman bu "texniki xəta"ya diqqət çəkən media yazırdı ki, Ü.Mansurov direktor kimi işə gəlsə də, rəsmi sənədləri imzalaya, təyinatlarla bağlı öz adından qərarlar verə bilmir. Bu işlər S.Kazımovun imzası ilə həyata keçirilir.

Buna səbəb isə qanunla Ü.Mansurovun müəyyən müddət rəhbər vəzifə tutmasına qadağanın qoyulmasıdır. Bildirilirdi ki, Cahangir Hacıyevdən sonra Beynəlxalq Banka rəhbərlik etmiş Elmar Məmmədov onu öz müavini təyin etdirib. Amma qısa müddət sonra E.Məmmədovun adı dolların "qara bazarı"nı yaratmaqda hallandı və o, vəzifədən uzaqlaşdırıldı. Təbii ki, müavini olan Ü.Mansurov da.

Xəbərlərdə bildirilirdi ki, Ü.Mansurov vəzifədən xüsusi maddə ilə çıxarıldığından onun müəyyən müddət rəhbər vəzifə tutması qanunla qadağandır. Nə qədər absurd səslənsə də, Ü.Mansurovun "Azərpoçt"a formal direktor təyin olunduğu və bu səbəbdən adının rəsmi veb-səhifəsində olmadığı bildirilirdi.

"Azərpoçt"un adı iki il əvvəl Rabitə Nazirliyində baş verən həbslərdən sonra diqqət mərkəzinə gəlib. Nazirlikdə həbslər başlayandan sonra bu şirkətin baş direktoru Qəmbər Bəybalayev Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Qəmbər Bəybalayev ötən ay başa çatan "Rabitə işi" adlanan məhkəmədə korrupsiya və külli miqdarda dövlət vəsaitini mənimsəməkdə ittiham olunaraq 3 il müddətinə azadlıqdan məhrum edilib.

Hazırda direktorun səlahiyyətlərini icra etdiyi deyilən S. Kazımov da media üçün yeni adam deyil. S.Kazımov baş nazirin müavini Əli Əhmədovun bacısı oğludur.

İddialara görə, Əli Əhmədovun bacısı oğlunun yüksək posta gətirilməsinə səbəb sabiq nazir Əli Abbasov olub. S. Kazımov 2002-ci ildə "Azərpoçt" MMC-də texniki şöbənin rəisi olsa da, Əli Abbasov nazir müavini təyin olunduqdan (2014) az müddət sonra o, "Azərpoçt" MMC-nin baş direktor müavini olub.

Ü.Mansurovun işdən niyə çıxarıldığı haqda hələ ki rəsmi məlumat yoxdur. Bir ay bundan əvvəl ərizə yazan baş direktorun niyə indi işdən çıxdığı xəbərinin yayılması da bu işlə bağlı suallar doğurur. Əgər onun rəhbər vəzifə tutması ilə bağlı qadağanın olması faktı doğrudursa, bu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi üçün ciddi skandal ola bilər.

❑ **Musavat. com**



# Həbsdəki general son söz dedi - sərt danışdı...

## "Mən ölkənin generalıyam" deyən Elçin Quliyev bəraət tələb edir

**Daha bir "MTN dəstəsi"nin məhkəməsi yekunlaşır.**

Musavat.com xəbər verir ki, MTN-in Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev və polkovnik Azər Mehdiyevin cinayət işi üzrə məhkəmə iclası davam edib.

Bakı Hərbi Məhkəməsində keçirilən prosesə hakim Elbəyi Allahverdiyev sədrlik edib.

Prosesdə Azər Mehdiyev son sözlə çıxış edib. Günahsız olduğunu deyən polkovnik iş adamı Maqsud Mahmudovun işinə görə tutulduğunu və həmin epizod üzrə də günahının olmadığını deyib. Barəsində bəraət çıxarılmasını istəyib.

Daha sonra general Elçin Quliyev son söz deyib.

General deyib ki, onu siqaret satanlara görə tutublar:

"Mənim nə qədər nailiyyətlərim olub. Gəncə, "Sovetski" hadisələrində ciddi xidmətlərim, əməliyyatlarım olub, hamısı da uğurla nəticələnib. Bu belə olmaz. Mən ölkənin generalıyam. Heç bir günahım yoxdur. Bəraət istəyirəm".

Hakimlər kollegiyası hökm qəbul etmək üçün müşavirəyə çıxıb. Məhkəmə qeyri-müəyyən vaxta qədər təxirə salınıb.

Qeyd edək ki, ötən prosesdə dövlət ittihamçısı E.Quliyevin 15, A.Mehdiyevin 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Hökmə əsasən, hər iki şəxsin hərbi rütbəsinin alınması, əmlaklarının müsadirə edilməsi tələb edilib.

Qeyd edək ki, bu, artıq həbs edilən üçüncü qrup MTN zabitlərinin işidir ki, məhkəmədə baxılır.

Həbsdə olan MTN-in Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev Eldar Mahmudov vəzifədən qovulandan sonra tutduğu vəzifədən azad olunaraq, MTN-in Heydər Əliyev adına Akademiyasına kafedra rəisi təyin edilmişdi.

Ancaq MTN ləğv edildikdən sonra o da həbs edilib.

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017

# “YAP-ın müşavirəsində xüsusilə 2018-ci il seçkisinə hazırlıq müzakirə olundu”

## Siyavuş Novruzov: “Yanvardan partiyanın bütün strukturları seçki hazırlığına səfərbər olunacaq”

**“Noyabrın 25-də keçirilən müşavirədə Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları qarşısında konkret vəzifələr qoyuldu, partiyanın yerli strukturlarının nümayəndələrinə müvafiq tövsiyə və tapşırıqlar verildi. Bu vəzifələr rayon və şəhər təşkilatlarının bundan sonra öz fəaliyyətlərini hansı istiqamətlərdə davam etdirmələrinə dair məsələləri əhatə edir. Xüsusilə də 2018-ci ildə keçiriləcək prezident seçkilərinə hazırlıqla bağlı məsələlər ətrafında müzakirələr aparıldı”.**

APA-nın məlumatına görə, bunu YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov YAP-ın saytına müsahibəsində bildirib.

S. Novruzov deyib ki, gələn ilin yanvar ayından etibarən partiyanın bütün strukturları seçkiyə hazırlıq üçün səfərbər olunacaq. O qeyd edib ki, yeni resursların müəyyən olunması da diqqət mərkəzindədir: “Məlumdur ki, seçkilərin xarakteri zaman keçdikcə müəyyən dəyişikliklərə uğrayır, daha çox virtual məkanda bu proseslərin həyata keçirilməsi mexanizmləri müəyyənləşdirilir. Eyni zamanda indiki mərhələdə dünya miqyasında insanları maraqlandıran məsələlərin siyahısı da dəyişir. Məsələn, ABŞ-da sonuncu prezident seçkilərinə istinad edərək deyə bilərik ki, əgər bu ölkədə demokratiya, insan hüquq və azadlıqları birinci dərəcəli məsələ kimi qəbul edilirdisə, indi artıq təhlükəsizlik, ictimai-siyasi sabitlik və sosial rifah kimi məsələlər önə keçib. Bu cür məqamları dərindən, köklü şəkildə öyrəndikdən sonra insanlara gələcək üçün yönəldiləcək mesajlar da məhz bu məsələlər əsasında müəyyən edilməlidir. Bu baxımdan, ərazilərin qiymətləndirilməsi, yerlərdə vəziyyətin müəyyən olunması, problemlərin və görüləcək işlərin nədən ibarət olduğunun dəqiqləşdirilməsi vacib şərtlərdən biridir”.



**S.Novruzov digər siyasi partiyaların hazırlığından da danışıb:** “Müəyyən partiyalar var ki, son ana qədər seçkilərdə iştirak etməklə bağlı konkret qərar və düşüncəyə malik olmur. Seçki kampaniyası başlayana qədər seçkilərdə iştirak edib-etməyəcəyini müəyyənləşdirə bilməyən belə partiyalar sonradan cəfəng fikirlərlə çıxış edir, hətta guya qələbə qazandıqlarını, uğur əldə etdiklərini ifadə edirlər. Qərb ölkələrində fəaliyyət göstərən müəyyən təşkilatlar isə ikili standartlara əsaslanaraq absurd bəyanatlar səsləndirir, həmin siyasi partiyaların fikirlərini dəstəkləməyə çalışırlar. Bu isə Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə olunur. Əslində bu cür partiyalar və təşkilatlar yaxşı başa düşürlər ki, seçkilərə ən azı 1 il öncə mütəşəkkil qaydada, ardıcıl və sistemli şəkildə hazırlaşmaq lazımdır. Əgər hər hansı bir siyasi partiya seçki kampaniyasına start veriləndə qədər seçkilərdə iştirak edib-etməyəcəyi barədə qərara malik deyilsə, o, 2 ay müddətində istər təbliğat-təşviqat kampaniyasının aparılması, namizədin irəli sürülməsi, istərsə də imzaların toplanması və digər prosedurlarla bağlı işləri həyata keçirə bilməz. Eləcə də seçkidə iştirak etmək istəyən siyasi partiyalar seçki planını və mövcud resursları dəqiq müəyyən etməli və bilməlidir ki, ərazilərdə konkret vəziyyəti düzgün qiymətləndirmək üçün sistemli iş aparmalıdır. Kifayət qədər seçki təcrübəsinə malik olan ölkələrdə bu reallıq aydın şəkildə bilinir və dərk olunur. Bu baxımdan, YAP hər zamankı kimi öz fəaliyyətini məqsədyönlü və ardıcıl şəkildə davam etdirir və seçki prosesinə hazırlıq işlərinə start verib. Yaxın vaxtlarda partiyamızın İdarə Heyətinin və müvafiq strukturların bununla bağlı qərarları olacaq, o cümlədən seçki planı hazırlanaraq yerli təşkilatlara təqdim olunacaq”.

# Evi plana düşüb sökülənləri gözləyən təhlükə

## Vüqar Bayramov: “Tikinti şirkətləri üçün risklərin sığortalanması işə başlamaq üçün əsas tələblərdən biri olmalıdır ”



**“Bakıda köhnə tikililərin, xüsusən də "Xuruşovka" adlandırılan binaların sökülərək yerində yenilərinin inşası prosesi başlayıb. İnşaata məsul olacaq şirkətlər mənzil sahiblərinin adətən 2 illik kirayə haqlarını ödəyən və həmin müddətdən sonra inşa ediləcək binada onlara yeni mənzillər təklif edən müqavilə əsasında söküntü işləri həyata keçirirlər".**

Bunu İqtisadi və Sosial İnkişaf Mərkəzinin (İSİM) sədri Vüqar Bayramov facebook səfihəsində yayımladığı açıqlamasında qeyd edib. Onun sözlərinə görə, ilk baxışdan inşaat şirkətlərin təklifi normal təsir bağışlayır: “Bina inşa ediləndək kirayə haqqı ödənilir və daha sonra köhnə binadakı mənzil sahibi yeni və sahəsi müqayisəli şəkildə böyük olan mənzilə sahib olur. Amma proses heç də belə sadə olmaya bilər. Belə ki, risklər sığortalanmadığından gələcək inşaat şirkəti öhdəliyini yerinə yetirə bilməsə, o zaman vətəndaşın yeni mənzili necə əldə edəcəyi mexanizmləri bəlli deyil. Məsələn, təsəvvür edək ki, şirkət sakinlərə kirayə üçün ödəniş etdi, köhnə binanı sökdü və yeni binanı inşa edən zaman müflis oldu, tikintini başa çatdıra bilmədi”.

Bəs bu halda, sakinləri yeni mənzillərlə hansı şirkət təmin edəcək?

Mütəxəssis hesab edir ki, sakinlərlə inşaat şirkətləri arasında bağlanan müqavilələrdə bu hallar nəzərə alınmır: “İnşaat şirkətlərinin aktivləri az olduğundan bu zaman tikintinin başa çatdırılması üçün tələb edilən xərci aktivləri sataraq ödəmək də mümkün deyil. Buna görə də gələcəkdə belə hallar baş verən zaman sakinlərin mənzilsiz qalmaması üçün yeni mexanizmlərin hazırlanıb tətbiq edilməsnə ehtiyac var.

Tikinti şirkətləri üçün risklərin sığortalanması işə başlamaq üçün əsas tələblərdən biri olmalıdır. Tikinti firması öz risklərini sığorta şirkətində sığortaladıqdan sonra ona inşaat aparmaq icazəsi verilməlidir. Evini tərk edib, kirayə qalan sakin əmin olmalıdır ki, bütün hallarda o, yeni mənzillə təmin ediləcək".

❑ Musavat.com

# Zahid Orucun parlamentdə səsləndirdiyi təklif rezonans doğurdu

## Deputat: “Mənim dediklərim nazirliyin rəhbərliyinin, nazir müavinlərinin fəaliyyətinin təqdir olunması kontekstində idi”

**Millət vəkili Zahid Oruc Milli Məclisin sonuncu plenar iclasında maraqlı bir təkliflə çıxış etmişdi. O demişdi ki, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinlərindən biri Qarabağ müharibəsi əlillərindən biri olsun. Bu təklif cəmiyyətdə müsbət reaksiyalara səbəb olsa da, sözügedən nazirlik tərəfindən birmənalı qarşılanmadı.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bu təklifə reaksiya verərək bildirdi ki, əlilliyi olan şəxslərə ayrıca bir kateqoriya kimi baxılmasının əleyhinədir: “Bu, yanlış bir addım olardı. Əgər hansısa bir əlilliyi olan şəxs həmin səviyyəyədək yetişə bilərsə, bu, təmin oluna bilər. Nazir müavinin təyinatını ölkə başçısı həyata keçirir. Məncə, bu məsələlərə qarışmaq doğru deyil”.

Bunun ardınca, “Yeni Müsavat” olaraq yenidən **Milli Məclisin deputatı Zahid Orucla** əlaqə saxladıq və ondan verdiyi təkliflə bağlı yaranan reaksiyalara münasibət öyrənməyə çalışdıq.

**Deputat bildirdi ki, müzakirələrdə sözügedən qurumun fəaliyyəti təqdir olunub və onların işinə dəstək xarakterli təkliflər səsləndirilib:** “Biz parlamentdə sosial sahə ilə bağlı büdcə layihəsini müzakirə edərkən təkcə Qarabağ əlilləri ilə bağlı deyil, bütün digər kateqoriyalardan olan insanlarımızla bağlı məsələləri də gündəmə gətirdik. O səbəbdən söylənilən fikirlərin böyük bir hissəsi təklif xarakteri daşımaqla yanaşı, ötən illər ərzində hörmətli Səlim Müslümovun nazir təyin olunmasından sonra görülən işlərin işlərin dəyərləndirilməsi üzərində qurulmuşdu. Hər kəs də onu



vurğulayırdı ki, aztəminatlı ailələrə yönəldilən ünvanlı yardım siyasətində, o cümlədən əlillik dərəcələrinin verilməsində və digər sahələrdə insan amilinin aradan qaldırılması müsbət haldır. Rüşvət və korrupsiya hallarının durdurulması və onu özünün müsahibələrində çox mənfi bir hal kimi qeyd edərək , həmin sosial bəlanın ləğv edilməsi üçün həyata keçirdiyi tədbirləri vurğulaması təqdir olundu. Hamımız bu işləri müsbət qiymətləndirdik. Hörmətli Səlim Müslümovun özü orada iştirak etmədiyindən hər kəs düşündü ki, bu müzakirələrin yekunları cənab nazirə məruzə olunacaq, bunlar gələn dönəmdə nəzərə alınacaq. Hesab edirəm ki, mənim parlament üzvü kimi Qarabağ əlilləri ilə bağlı məsələyə toxunmağım da həmin qurumun rəhbərliyinin, nazir müavinlərinin fəaliyyətinin təqdir olunması kontekstində idi”.

**Zahid Oruc onu da vurğuladı ki, bu təklifdə söhbət Qarabağ savaşında iştirak etməyən nazir müavinlərinin fəaliyyətinə münasibətdən getmir:** “Qətiyyən elə bir mövqe seçilməmişdi ki, kimlərsə bilavasitə Qarabağ savaşından keçmədiklərindən həyatın çox ağır üzünü görmüş, bu davanı aparmış insanların problemlərinə biləndçiliyi yoxdur. Əksinə, biz o insanların fəaliyyətinə qiymət veririk. Lakin hələ Qarabağ müharibəsi başa çatmayıb, bizim bu savaşdan keçən insanların rəhbərlikdə təmsil olunması həm də onlara göstərilən etimad və etibar kimi qələmə alınacağını, bizim gələcək davamıza, səfərbər olunmağımıza müsbət təsir edəcəyini söyləmişik. Hesab edirəm ki, buna verilən reaksiya adekvat oldu. Səlim müəllim vurğulayıb ki, Qarabağ əlillərini biz digərlərindən ayırmamalıyıq. Bu, həqiqətən də belədir. Onların Azərbaycanın hər bir sadə vətəndaşı, elmli, təhsilli insanı ilə yanaşı tutulması çox yaxşı bir baxışdır. Əksinə, biz onlara ayrıca evlər verilərkən, bütün Qarabağ əlilləri və şəhid ailələri bir binaya yerləşdirilərkən çağırış edirdik ki, belə olmasın. Burada da niyyət o idi ki, həmin insanlar özlərini ayrı-seçkilik siyasətinin hədəfində görməsinlər”.

**Deputatın fikrincə, dövlətin şəhid ailələri və Qarabağ əlilləri ilə bağlı fəaliyyətinin təbliğində bu kateqoriyadan olan şəxsin fəaliyyəti daha effektiv ola bilər:** “Mən hesab edirəm ki, mediadakı reaksiyalar da hamımızı düşündürür. Qarabağ müharibəsində iştirak edən qazi əgər idarəetmədə təmsil olunursa, onların hansısa ictimai təşkilatları varsa, həmin insanlar da dövlətin yanında olacaqlar. Azərbaycan prezidentinin bu sfera ilə bağlı həyata keçirdiyi genişmiqyaslı siyasətdə onlar dövlətin yanındadırlar. Qarabağ əlilləri idarəetmədə vəzifə tuturlar və dövlətin yürütdüyü siyasətdə iştirak edirlər. Onların addımları həmin camea tərəfindən daha fərqli qəbul olunacaq. Əgər hansısa sosial məsələdə imkanımız çatmırsa, bugünkü büdcə imkanlarının xaricindədirsə, onların verdiyi izah hər hansı əlil və şəhid ailəsi tərəfindən qəbul olunacaq. Mən daha çox bunu qabartmaq istəmişdim. Burada niyyət həddindən artıq sağlam və həmin qurumun fəaliyyətini təqdir edən kontekstdə qoyulmuşdu. Əminəm ki, bu təklif də gələcək fəaliyyətdə müsbət formada nəzərə alınacaq” .

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017

# Muqabeyə və Mütəllibova tanınan haqlar

## Və ya 25 il əvvəl Mütəllibova istefa qarşılığında nələr təklif olunmuşdu?

**Zimbabvedə baş verən hərbi çevriliş ölkəni 37 ildir idarə edən Robert Muqabenin istefası ilə nəticələndi. Noyabrın 14-də paytaxta yeridilən ordu qüvvələri 93 yaşlı Zimbabve diktatorunu əvvəlcə ev həbsinə atdı. Ancaq baş verən hadisələr qansız ötüşdü. Silahlı qüvvələr əvvəlcə “prezidentin ətrafındakı cinayətkar məmurları cəzalandırmaq” adı ilə prezident və yaxın ətrafını həbs etdi.**

93 yaşlı Muqabe bir neçə gün istefa verməkdən imtina etsə də, sonunda taleyi ilə barışmalı oldu. Daha doğrusu, öz partiyası və keçmiş silahdaşları ondan üz çevirdi. Zimbabve parlamentinin impiçment qərarından sonra noyabrın 21-də Muqabe istefa verib.

Ancaq Muqabe “əliboş” yola salınmayıb. Robert Muqabeyə ömrünün sonunadək hər ay təxminən 150 min dollar təqaüd veriləcək. Bundan başqa, Muqabeyə istefa verdikdən sonra dərhal 5 milyon dollar ödənib. Bundan başqa, Muqabe və onun həyat yoldaşı məhkəmə təqibinə qarşı immunitet əldə ediblər.

Qeyd edək ki, nə qədər qəribə də olsa, bu təcrübə daha öncə Azərbaycanda yaşanıb. 1992-ci il martın 6-da baş verən hadisələrdən sonra istefaya göndərilən prezident Ayaz Mütəllibova o zamankı hökumət pensiya təyin etdi və sabiq prezident kimi bir sıra





hüquqlar tanındı. Ancaq mayın 14-də Mütəllibovun yenidən hakimiyyətə qayıtması onunla bağlı bu anlaşmanın pozulmasına səbəb olub. İkinci dəfə devrilən A.Mütəllibov Rusiyaya qaçıb.

Bundan sonra eks-prezidentlərin hüquqları mövzusu uzun müddət qapalı qalıb. Yalnız 2012-ci il iyunun 12-də uzun müzakirələrdən sonra “Eks-prezidentlər haqqında” Qanun Milli Məclisdə qəbul edildi. Qanun 12 maddədən ibarətdir.

Bu qanuna əsasən, “keçmiş prezident” Konstitusiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti vəzifəsini tutmuş, prezident vəzifəsini tutmuş və vəfat etmiş, həmçinin konstitusiyanın 104-cü maddəsinə uyğun olaraq səlahiyyətlərinə xitam verilmiş şəxslər hesab olunur. Qanunda keçmiş prezidentin həyat yoldaşı və öhdəsində olan uşaq anlayışları da verilib. Öhdədə olan uşaq dedikdə vəfat etmiş prezidentin 18 yaşına çatmamış və onun öhdəsində olan uşaq, o cümlədən övladlığa götürülmüş uşaq və ya ögey uşağı nəzərdə tutulur.

Qanuna əsasən, keçmiş prezidentin pensiyası prezident vəzifəsində olan şəxsin əsas aylıq əmək haqqının 50 faizinə bərabər götürülür. Bundan başqa, qanunda keçmiş prezidentlər üçün 3 nəfər təhlükəsizlik heyəti, bir sürücü, bir xidməti avtomobil verilməsi, prezident vəzifəsində olan şəxsin əsas aylıq əmək haqqının 20 faizi məbləğində nümayəndəlik xərclərinin ödənilməsi, keçmiş prezident və onun həyat yoldaşına ömürlük diplomatik pasport verilməsi nəzərdə tutulur.

Muqabe qədər böyük məbləğ olmasa da, 20 ildən sonra Ayaz Mütəllibov növbəti dəfə eks-prezident hüququndan yararlana bildi. Hazırda da yararlanmaqda davam edir.

❑ KƏNAN



# AMİP rəhbərliyindən müxalifətə “ehtiyatlı ol, nəticə çıxar” çağırışı

## Arzuxan Əlizadə: “Əvvəlki dövrdəkindən fərqli olaraq indi Zimbabve hadisəsindən həvəslənənlərin olmaması yaxşı haldır”

**Azərbaycanda bir sıra müxalifət qurumlarının müxtəlif ölkələrdə inqilablar olanda həmin hadisələrdən müəyyən impulslar aldığı, həvəslənib hərəkətləndiyi bəllidir. 2003-cü ilin sonunda Gürcüstanda baş verən “qızılgül inqilabı”ndan başlanan bu tendensiya bir neçə il öncəki “ərəb baharı”na qədər davam etdi. Lakin ötən həftə Zimbabvedə hakimiyyət dəyişikliyi ilə nəticələnən çevrilişdən sonra sözügedən vəziyyət müşahidə olunmur.**

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** bu barədə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, illərdir müşahidə olunan “ənənə”nin bu dəfə təkrarlanmamasının səbəbləri var. Səbəblərdən biri Zimbabvedə inqilab yox, hərbçilərin dövlət çevrilişi etməsidir. Azərbaycanda müxalifət düşərgəsindən heç kim dövlət çevrilişi hadisəsini dəstəklədiyini, bundan impuls aldığını təbii olaraq nümayiş etdirməz: “Ümumiyyətlə, hər hansı ölkədə inqilab və ya hakimiyyət dəyişikliyi baş verirsə diqqətin həmin ölkəyə yönəlməsi təbiidir. Həmçinin hakimiyyətin dəyişilməsində maraqlı olan müxalif qüvvələrin belə hadisələrə həssas yanaşması da təbii qəbul olunmalıdır. Bu anlamda Azərbaycan müxalifəti də istisna deyil. Həqiqətən də, beş il əvvəl ərəb ölkələrində sonradan ”ərəb baharı” adlandırılan silsilə inqilablar və hakimiyyət dəyişiklikləri baş verən zaman Azərbaycan siyasi mühitində də bir hərəkətlilik hiss olundu. O zaman bir çox siyasilər inqilab dalğasının Azərbaycandan da yan keçməyəcəyi ilə bağlı proqnozlar versələr də bu baş vermədi. Əslində baş verməsi mümkün də deyildi və çox şükürlər olsun ki, baş vermədi. Çünki sonradan hadisələrin gedişi də onu göstərdi ki, bu inqilablar heç də kortəbii surətdə deyil, bəlli güclərin əvvəlcədən planlaşdırılmış ssenarisi əsasında baş verib. “Ərəb baharı”nın nəticələri göz qabağındadır. Böyük bir coğrafiya bu gün də od içində yanır, içərisində uşaqların və qadınların da çoxluq təşkil etdiyi minlərlə insan həyatını itirib, yaralı sayı on minlərlə ölçülür və milyonlarla insan doğma ev-eşiyindən didərgin düşərək taleyin ümidinə buraxılıb. Əsasən müsəlman əhalinin yaşadığı bu regionda alovlanan cəhənnəm odunun nə zaman sönəcəyi də bəlli deyil. Bir həftə əvvəl Zimbabvedə baş vermiş hakimiyyət dəyişikliyi fərqli rakursda olsa da, istənilən halda hesab edirəm ki, iqtidarda və ya müxalifətdə olmasından asılı olmayaraq siyasilər dünyada baş verən hadisələri, xüsusilə də bu tip olayları diqqətlə araşdırılmalı və düzgün nəticə çıxarmağa çalışmalıdırlar. Belə görünür ki, müxalifət düşərgəsində müəyyən nəticələr çıxarılıb da. Əvvəlki dövrdəkindən fərqli olaraq indi Zimbabve hadisəsindən həvəslənənlərin olmaması yaxşı haldır".

**A.Əlizadə qeyd etdi ki, bəzən inqilablar baş vermiş bir sıra ölkələrlə analogiya gətirilsə də nəzərə almaq lazımdır hər ölkənin öz spesifik xüsusiyyətləri var:** “Ümumiyyətlə, onu da nəzərə almaq lazımdır ki, ixrac olunan və ssenarisi xaricdə tərtib olunan inqilablar heç vaxt baş verdiyi ölkəyə xoşbəxt gələcək vəd edə bilməz. Eyni zamanda onu da diqqətə almaq lazımdır ki, belə çevrilişlər bir qayda olaraq demokratik dəyərlərin qorunmadığı, avtoritar rejimlərin mövcud olduğu və qanunun ali olmadığı cəmiyyətlərdə baş verir”.

❑ E.SEYİDAĞA

# Dünya Azərbaycana qarşı niyə qərəzlidir- “Qarabağ” nümunəsi və...

## Fərəc Quliyev: “Artıq biz o ”böyük gücləri" kiçik görməliyik”

**Dünya birliyinin Azərbaycana qarşı hər sahədə qərəzli, ədalətsiz mövqedən çıxış etdiyinin daim şahidi oluruq. Bu, təkcə Dağlıq Qarabağ münaqişəsinin fonunda milli məsələlərimizlə bağlı deyil, artıq idman sahəsində də baş verir.**

Son olaraq, Çempionlar Liqasının qrup oyunlarında Bakıda keçirilən “Qarabağ” - "Çelsi" oyununda portuqaliyalı hakimin klubumuza qarşı 90 dəqiqə ərzində qərəzli olması, oyunun taleyini həll edən bir qırmızı kart və qapımıza iki penalti təyin etməsi bu məsələni bir daha aktuallaşdırdı. Açıq şəkildə xristian hakim milyonların gözü qarşısında “Qarabağ”a qarşı açıq qərəz nümayiş etdirdi.

Bu yanaşmanın səbəbləri ilə bağlı zaman-zaman müxtəlif mövqelər sərgilənib. Gah burada xristian təəssübkeşliyinin olduğu, gah da müsəlman-türk faktorunun əsas rol oynadığı önə çəkilir. Bizi kiçik bir ölkə və xalq olaraq gördükləri üçün də qərəzli münasibət sərgilənməsi barədə də fikirlər az deyil.

Əslinə qalsa, “Çelsi” ilə oyundan sonra “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov bu məsələyə toxunaraq, bir sıra maraqlı fikirlər səsləndirmişdi.

**Sitat:** “Son vaxtlar bu qədər məyus olmamışdım. Mənə maraqlıdır ki, bizim ölkəyə bu qədərmi kiçik baxırlar? İnanmıram ki, böyük komandalara qarşı bu cür qərar verərdilər”.

Əslində əfsanə məşqçimizin bu cümlələri ilə hansı mesajları verdiyini, qəlbindən keçənləri və dilə gətirə bilmədiklərini anlamamaq mümkün deyil.

Ölkəmizə, xalqımıza qarşı bu münasibətin qarşısını necə almalı kimi suallar hər kəsdə var.



**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev öncəliklə “Qarabağ”a edilən haqsızlıqların səbəblərinə toxundu:** “Bu idman növü həm də biznes, qumardır. Böyük vəsaitləri olan milyarderlər belə oyunlara pul qoyurlar. Böyük ehtimalla "Çelsi"nin qalib gələcəyini proqnoz etmişdilər. Oyunun ilk 15-20 dəqiqəsində bunların proqnozunun artıq alt-üst ola biləcəyi görünürdü. Artıq qol kimi bir şey olan qapı dirəyinə top dəymişdi. Düşündülər ki, pul itirəcəklər. Hesab edirəm ki, bu anda hakimə, yaxud onun “böyüyünə” zəng gəldi ki, “Qarabağ”ı uduzdurmalısan. Belə hallar dünyanın müxtəlif yerlərində az olmayıb. “Mançester Siti”ni xatırlayaq, son anda bu klubun uduzdurulması sifarişi gəlmişdi. Mətbuatda da bu xəbərlər getmişdi. “Qarabağ” birmənalı şəkildə “Çelsi”ni udacaqdı. Çox böyük üstünlüyü var idi. Komandamızı təbrik edirəm, 10 nəfərlə belə əzmkarlıq nümayiş etdirdilər. Millət olaraq da, xarakterimizin güclü olduğunu göstərdilər. İstənilən avropalı bizi qısqanır. Heç kim dilinə gətirməsə də, burada xristian və müsəlman amili də var. Bütün məsələlərdə təəssübkeşlik edirlər. Burada siyasi məsələlər də var. Bizim yerləşdiyimiz yerdə ağalıq etmək istəyirlər. Burada ayaqüstə dayanan bir millətin mövcudluğunu belə istəmirlər. Biz ruslardan fərqli olaraq, cavanlaşan bir millətik. Sözlərini keçirmək üçün daim bizi zəif salmağa çalışırlar. İki əsr əvvəldən “Böyük Şərq” planları var idi, türk dünyasını parçalamaq, burada xristian dövlətləri yaratmaq istəyirdilər. O plan bu gün də davam edir. Biz özümüz toparlanmalı, cəmiyyət olaraq güclü olmalıyıq. Bizi içərimizindən dağıtmaq istəklərinə imkan verməməliyik. Xüsusilə “sapı özümüzdən olan baltalar”a çağırış edirəm ki, bu gün günlük siyasət yürütməyin, səhəri gün övladlarınız, nəvələriniz o imperialist qüvvələrin kölələrinə çevrilə bilərlər. Daxildə özümüz möhkəm olmalı, Avropa Evinə oxşayan Avrasiya Evi qurmalıyıq, türk-islam birliyi şəklində. Bundan başqa çıxışımız yoxdur. Bizə xoş münasibətləri olan Ukrayna, Gürcüstan kimi dövlətlərlə cinah müttəfiqliyi qurmalıyıq".

**Deputat bizi dövlət olaraq kiçik görmələrindən də söz açdı:** “Bizi kiçik görməyə alışıblar. Amma ”Qarabağ"ın oyununda yanıldıqlarını gördülər. Artıq bir türk klubunun mötəbər yarışda irəlilədiyinin şahidi oldular. Son üç oyunda da “Qarabağ”ın qalib gəlmək üçün real imkanları var idi, amma hər birində hakim imkan vermədi. Qarşılarında gördükləri qüdrətli bir xalqı və qüdrətli bir xalqın komandasını həzm edə bilmədilər. Biz hesabda uduzduq, amma mənəvi cəhətdən çox böyük qələbə qazandıq. Sübut etdik ki, bizdən qorxmağa başlayın. Əgər bizdən qorxmağa başlayıblarsa, demək, artıq biz onları kiçik görməliyik. Bizimlə ədalətli şəkildə mübarizə aparmağa qadir deyillər. Ola bilər ki, bu məsələdə bir az duyğusal fikir bildirim. Oyunda qırmızı kart və penalti verəndən sonra Qurbanov komandanı kənara çağırdı. Hesab edirəm ki, o zaman komanda oyundan çıxmalı idi, bizi yarışlardan kənarda qoysalar belə. Göstəri ilə çıxıb getmək lazım idi. Həmin hakimə, aid olduğu dövlətə sərt təpki göstərməliyik. Hətta təhqiramiz ifadələrlə dolu məktublar belə elektron poçt vasitəsilə göndərməliyik. Həmin hakimin çox ağır şəkildə cəzalandırılmasına nail olmalıyıq. Belə bir ənənənin oturuşmasına imkan verməməliyik. Əvəzini çıxmasaq, belə hallar yenə də baş verəcək".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017




# İtalyada TAP layihəsinə qarşı sabotajın pərdəarxası...

## Politoloq: "Burada ermənilərin də əli var"

**İtalyada məşhur yazıçı-şair Erri De Luka Azərbaycan qazını Avropaya nəql edəcək TAP qaz kəmərinə qarşı sabotaja çağırıb.**

Bu barədə virtualaz.org İtaliya KİV-lərinə istinadən xəbər yayıb ki, yazıçı kəmərin tikintisinin davam etdiyi Melandunyonun bir neçə kilometrliyində yerləşən Leççedə tələbələr qarşısında çıxışı zamanı kəməri "ictimai ələsalma" adlandırıb və əhalini bu kəmərə qarşı sabotajlara səsləyib.

"TAP onun tikintisinə qarşı çıxan sakinlərin və bələdiyyələrin etirazlarına baxmayaraq davam etməkdə olan ictimai ələsalmadır. Mən inanıram ki, TAP sabotaj olunacaq"-Erri De Luka bildirib.

Bundan əvvəl isə yazıçı İtaliyada sürətli dəmir yol qatarı layihəsinə qarşı çıxıb və bu layihəyə qarşı sabotaja çağırıb. Erri De Luka buna görə məhkəməyə də verilib. Ancaq məhkəmə onun sabotaj çağırışının zorakılığa səbəb olmadığı qənaətinə gələrək iddianı təmin etməyib.

Erri De Luka Leççe əhalisini TAP-a qarşı "bir olmağa" səsləyərək deyib ki, onun fikrincə yerli ictimaiyyətin yekdil mövqeyi kəmərin çəkilməsini ləngidəcək, işləri sabotaj edəcək.

Ümumilikdə isə İtalyanın Leççe və Melandunyo əyalətlərində vaxtarışı olaraq TAP kəmərinə qarşı etirazlar təşkil olunur, kəməri çəkən şirkətin ofisinə, texnikasına zərər vurulur. Bu etirazları şoumen-siyasətçi Beppe Grillonun "No TAP" ictimai komitəsi təşkil edir. Grillo Rusiya ilə sıx əlaqələrə malikdir.

Qeyd edək ki, TAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Layihənin tərəfdarları hesab edir ki, boru kəməri Avropanın enerji təhlükəsizliyini artıraraq Rusiyadan asılılığı azaldacaq.

4,5 milyon dollara başa gələcək olan boru kəmərinin 2020-ci ildə istismara veriləcəyi gözlənilir. Boru kəməri Azərbaycanın Şahdəniz 2 yatağından çıxarılan qazı Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniyadan keçən tranzit yolla İtaliyanın cənubuna daşıyacaq.

Başlanğıc həcmi 10 milyon kub metr olan TAP boru kəməri Avropada təxminən 7 milyon ailəni enerji ilə təmin edəcək.

Bəzi ekspertlər ehtimal edirlər ki, İtalyada baş verən təxribatlarda Rusiyadakı müəyyən dairələrinin də təsiri və əli var.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu isə bildirib ki, bu hadisələrdə Rusiyanın qızışdırıcı rol oynadığını düşünmür:**

"Əslində Avropada erməniperəstlərlə Rusiya tərəfdarları arasında elə də böyük sərhəd yoxdur. Yeni Avropa məkanında Rusiyaya işləyən varsa, o, əvvəlcə erməninin də adamı olub. Rusiya Azərbaycan qazının Avropaya çıxmasına heç bir əngəl yaratmır. Çünki miqyaslar tamamilə başqadır. Əgər Rusiya Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Avropaya getməsinə maneə törədərsə və ortaya rəsmi bir sənəd qoyularsa, Türkiyə, "Türk axını" layihəsinin 4 xəttindən də imtina edə bilər. Bundan əlavə, sabotaj edən italiyalılar durub desələr ki, bizi Rusiya dəstəkləyir, Avropa İttifaqı buna dərhal reaksiya verəcək. Nəticədə isə "Qazprom" şirkətinin Avropadakı bir neçə layihəsi dayandırılacaq. İtalyada baş verənlərin, fikrimcə, iki səbəbi var. Birincisi, yerli bələdiyyələrlə müxalifətçilərin işidir ki, onlar tanınmış adamları ələ alırlar. İkincisi isə bu, erməniperəstlərin işidir. Ən real variant kimi düşünürəm ki, bu işlərin kökündə ermənilər dayanır. Çünki ermənilərin Avropa məkanında Azərbaycanın iri layihələrinə maneə olmaq təcrübəsi var. "Bakı-Tiflis-Ceyhan" layihəsi zamanı da gördük ki, ermənilər Qərb adından struktur təşkil etdilər, kürd məsələsini qarışdırdılar və sairə. Ona görə də düşünürəm ki, bu işdə də ermənilərin əli var".

**Politoloq bildirib ki, bu artıq 4-cü oxşar aksiyadır və biz müqaviləyə sadiqliyimizi saxlamalıyıq:** "İtalyada tanınmış adamlar, artistlər, hətta deputat belə bu cür aksiya keçirib. Onları elə İtalya hökuməti susdurdu. Neft sahəsində bizim ən böyük tərəfdaşımız İtaliyadır. Bu, təsadüfi deyil. Çalışırdıq ki, neftimizin Avropa İttifaqında ən böyük alıcısı İtalya olsun. İtalya Avropa İttifaqında böyük ambisiya sahibi olmasa da, güclü dövlətdir. Qazımızın oradan keçməsi də bu baxımdan bizim üçün müsbət haldır. İtalya dövləti bu kimi sabotajçı qrupları indiyə qədər neytrallaşdırıb, indidən sonra da bu, çox güman ki, davam edəcək. Biz vədimizə sadiqliyimizi ortaya qoymalı və ciddi tərəfdaş olduğumuzu göstərməliyik. Gedib İtalyadakı bu kimi adamlarla iş aparmamalıyıq. Çünki belə edərsək, Avropada ciddi problemlə üzləşərik. Elə hər kəs bu cür qruplar yaradıb, Azərbaycandan pul tələb edər. Bu baxımdan qruplara yaxın getməyin tərəfində deyiləm. Ancaq vaxtaşırı olaraq burada forumlar keçirib, İtalyanın diplomatları ilə işlər aparmalıyıq. Onlara Azərbaycan qazının Avropaya çıxma imkanlarını göstərməliyik. Məsələn, AGRİ layihəsi *(Azərbaycan-Gürcüstan-Rumıniya İnterconnector)* İtaliyadan kənar keçir və sıxılmış qaz Rumıniyaya gedir. Bu xətt 8 milyard kubmetrə qədər qaz daşıya bilər. Göstərməliyik ki, sabah Türkmənistan qazı da Azərbaycan üzərindən keçəcək. Bu dəqiqdir. Türkmənistan prezidentinin sadə sxemi var və burada nəzərdə tutulub ki, qaz Avropaya iri dövlətlərin ərazisindən kənardan keçsin. İtalya başa düşməlidir ki, TAP layihəsi ilə onlar da xeyli qazanc əldə edə bilərlər. Bu kimi sabotajçıların korporativ məqsədləri var. Avropa bizə üstün görünsə də əslində belə deyil. Orada xeyli sayda satqınlar, hökumətlərinə qarşı xəyanət edənlər var. Bu gün də onlar problemlər yaratmağa cəhd edirlər".

**Azərbaycan Yazıçılar Birliyindən italyalı qələm adamına etiraz bildiriləcəkmi? Buna qurumdan münasibət öyrənmək istədik. AYB-nin mətbuat xidmətindən bildirildi ki, rəhbərlik burada olmadığı üçün münasibət bildirə bilməyəcəklər.**

❑ Əli RAİS

# Beynəlxalq təşkilatlara ödənilən üzvlük haqları...

## Azərbaycan Avropa Şurasına ildə nə qədər üzvlük haqqı ödəyir?

**Dünyanın ən böyük beynəlxalq təşkilatları olan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı və Avropa Şurasına üzvlük dövlətlərə bir sıra üstünlüklər gətirir. Dövlətlər bu təşkilatlar vasitəsilə inteqrasiya olunur, özünü tanıdır, qarşılaşdıqları problemləri bu qurumların vasitəsilə çözməyə çalışır.**

Lakin o da məlumdur ki, dövlətlər həmin beynəlxalq təşkilatlara hər il böyük miqdarda üzvlük haqqı ödəyirlər. Bəs Avropa Şurası, Avropa İttifaqı və BMT kimi təşkilatlara üzlük haqqının məbləği dövlətlər üçün eynidir, yoxsa fərqli? Məsələn, Avropa Şurasına illik üzvlük haqqı olaraq Azərbaycan nə qədər ödəyir?

Beynəlxalq münasibətlər üzrə ekspert Yeganə Hacıyeva bildirdi ki, BMT, Avropa Şurası, Avropa İttifaqı kimi beynəlxalq təşkilatlar çox milyardlıq büdcələrə malikdirlər. Bu təşkilatların büdcələri bir neçə illik, üzv və ya iştirakçı dövlətlərin ödədiyi üzvlük haqqı ilə və ən əsası üzv ölkələrə tətbiq olunan fərqli hesablama sistemləri vasitəsilə formalaşdırılır. Ölkələrin ödədiyi üzvlük və ya iştirakçılıq haqları, onların makroiqtisadi göstəriciləri, ümumi daxili məhsulunun həcmi və ödəmə qabiliyyəti nəzərə alınmaqla həyata keçirilir: "Bu təşkilatların siyasət və missiyalarına uyğun fəaliyyət strategiyaları, onların həyata keçirmə planları müxtəlif müddətli olduğu kimi, büdcələri də müxtəlif müddətli formalaşır. Məsələn, Avropa İttifaqı uzunmüddətli fəaliyyət həyata keçirən bir təşkilat kimi 7 illik icmal büdcəsini formalaşdırır və bu icmal büdcədə Avropa İttifaqının əsas funksiyasını həyata keçirən 7 qurumun, komissiyaların və üzv dövlətlərin hər il ödəyəcəyi ehtimal edilən bir məbləğ mövcud olur. Əlbəttə, faktiki ödəniş isə icmal büdcədə ehtimal olunan məbləğdən fərqli olur. Ödənilən faktiki üzvlük haqqının məbləğini isə daha öncə də dediyim kimi, ölkənin makroiqtisadi göstəriciləri, ümumi daxili məhsul və ölkələrin ödəmə qabiliyyəti, bəzən isə istəyi formalaşdırır.



Yeganə Hacıyeva

Büdcənin formalaşmasına ölkələrin iştirakı haqqında məlumat üçün deyə bilərəm ki, 2014-2020-ci illərdə Avropa İttifaqının icmal büdcəsi 960 milyard avro nəzərdə tutulur. Bunun da makroiqtisadi göstəriciləri, ümumi daxili məhsulu nəzərə alınmaqla, 150 milyard avro Finlandiyanın payına, eyni göstəricilərə görə isə 5.89 milyard avro isə Estoniyanın payına düşəcək. BMT haqqında danışsaq, bu beynəlxalq qurumun büdcəsi iki illik və əsasən daimi və digər üzv dövlətlərin üzvlük haqqı hesabına formalaşdırılır. Üzvlük haqqı isə büdcənin, daha öncə də qeyd etdiyimiz kimi, ölkələrin 3 illik makroiqtisadi göstəriciləri, ümumi daxili məhsul və ödəmə qabiliyyəti nəzərə alınmaqla, BMT Baş Assambleyasının 5-ci komitəsi olan büdcə və administrasiya komitəsinin tərtib etdiyi hesablama sistemi əsasında müəyyənləşdirilir. Üzvlük haqqı ilə bağlı qeyd etmək istədiyim əsas məqam budur ki, əgər Avropa Şurası və Avropa İttifaqında üzv dövlətlərdən ödəniləcək üzvlük haqqı məbləğinin limiti yoxdursa, BMT-də bu, bir az fərqlidir. Belə ki, 2000-ci ildə BMT Baş Assambleyasının 5-ci komitəsi olan büdcə və administrasiya komitəsinin müəyyənləşdirdiyi qaydaya əsasən təşkilatın daimi və digər üzv dövlətlərin ödəyəcəyi məbləğ, ümumi büdcənin 22 %-ni keçməmək şərti ilə müəyyən edilir ki , digər adını çəkdiyimiz iki təşkilatda bu yanaşma tətbiq olunmur".

**Ekspertin sözlərinə görə, Avropa Şurasında da 2012-ci ildən büdcə formalaşmasında iki illik müddət və buna uyğun olaraq ölkələrin makroiqtisadi göstəriciləri, ümumdaxili məhsulu və ödəmə qabiliyyəti əsasında üzvlük haqqı sisteminin formalaşması tətbiq edilir:** "Məsələn, Avropa Şurasının 2017-ci il üçün icmal büdcəsi 456 milyon avro nəzərdə tutulur ki, bunun da ən yüksək ödəniləcək məbləği Fransanın payına düşür-təxminən 40 milyon avro. Avropa Şurasına üzvlük haqqının müəyyən olunmasında Avropa İttifaqından fərqli olaraq, ölkələrin makroiqtisadi göstəriciləri, ümumi daxili məhsulu və ödəmə qabiliyyəti ilə yanaşı, həmçinin üzv ölkələrin əhali sayı da nəzərə alınır. Avropa Şurasının 2014-2016-cı illər üçün büdcəsinin əsasını, yəni 57 faizini 5 donor ölkə - Fransa, Almaniya, İtaliya, Rusiya və Böyük Britaniya formalaşdırmışdı. Rusiya və Türkiyənin bu ildən Avropa Şurasının maliyyələşməsini dayandıracağı haqqında fikirlər səslənməkdədir".

Y.Hacıyeva sonda dedi ki, Azərbaycan Avropa Şurasına ödənəcək üzvlük haqqına görə Cənubi Qafqaz regionunda liderdir. Ölkəmizin Avropa Şurasına ödədiyi məbləğ makroiqtisadi göstəriciləri, ümumi daxili məhsul və əhali sayı nəzərə alınmaqla, 850624 avro təşkil edir.

❑ Etibar SEYİDAĞA

# Rusiyadakı diaspor rəhbəri od püskürdü:

# "Bizə düşmən lazım deyil!.."

## Fazil Qurbanov: "Bu, Putinin səlahiyyətində olan məsələ deyil axı"

**Rusiya Federasiyasında bu yaxınlarda ləğv edilmiş Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) yerinə yeni strukturun yaradılacağı barədə qurumun sədri Fazil Qurbanovla geniş müsahibə "Yeni Müsavat"ın ötən saylarında dərc olunub. ÜAK-ın Rusiya paytaxtı üzrə icraçı direktoru, Azərbaycan mədəniyyətinin dirçəlişi və inkişafı fondunun direktoru Şamil Tağıyev da virtualaz.org-un Moskva bürosuna bu barədə danışıb.**

**O, Rusiyanın regionlarından olan Azərbaycan icmaları rəhbərlərinin Ümumrusiya Azərbaycan Konqresinin prezidenti akademik Fazil Qurbanova məktub ünvanladıqlarını və ona yeni yaranacaq təşkilata rəhbərlik etməyi təklif etdiklərini təsdiqləyib:** "Onu son qurultayda seçiblər. Amma əlbəttə, yeni təşkilatı nəzərə alaraq, yeni qurultay olacaq, yeni seçkilər keçiriləcək. Ancaq səmimi deyəcəyəm, Fazil Qurbanova alternativ tapmaq çətindir. O, həyatının çox hissəsini Moskvada yaşamış nüfuzlu insandır. Ona görə də yeni təşkilat qarşısında diaspora başçısının seçimi ilə bağlı məsələ yalnız formal cəhətdən durur".

**Ş.Tağıyev qeyd edib ki, yeni təşkilat ÜAK-ın bazasında yaradılacaq. Amma ümid edir ki, yenilənmələr də olacaq:** "Çalışacağıq ki, peşəkarları cəlb edək. Çünki diaspora ilə iş yalnız restoranlarda konsertlərin və ya tədbirlərin keçirilməsi deyil. Bu, qeyri-formal diplomatiyadır və bununla onu bilən insanlar məşğul olmalıdır".

**Yeni təşkilatın necə adlanacağına gəlincə, Ş.Tağıyev bildirib ki, hələlik ad təsdiq edilməyib:** "Amma "köhnə-yeni" rəhbərlik onun tərəfdarıdır ki, əvvəlki ad-ÜAK saxlanılsın. Bu mümkündür, axı əvvəlki Ümumrusiya Azərbaycan Konqresi artıq mövcud deyil, deməli, ÜAK-ı hüquqi cəhətdən yenidən qeydiyyatdan keçirmək olar".

**"Sizdə yeni ÜAK-la Rusiya rəsmi strukturları arasında problemlər yaranacağı baxımından qorxu yoxdur ki" sualına cavab verərkən Ş.Tağıyev deyib:** "Əgər təşkilat Ədliyyə Nazirliyi vasitəsilə qeydiyyatdan keçəcəksə, onda hər şey yaxşı olacaq".

Qəti qərarın nə vaxt qəbul ediləcəyinə gəlincə, Ş.Tağıyev bir daha vurğulayıb ki, yeni təşkilatın yaradılması haqda qəti qərar artıq qəbul edilib: "Amma köhnə ÜAK-ın ləğvi ilə bağlı texniki detallar var. Ona görə də təşkilatın qeydiyyatı yarım ildən bir ilə qədər çəkə bilər. Axı bu, federal səviyyəli strukturdur. Düşünürəm ki, hansısa nüansları Diasporla İş üzrə Azərbaycan Dövlət Komitəsi ilə də razılaşdırmaq lazım gələcək. Bir daha vurğulayıram, biz kadrların tərkibinin ən azı 80 faiz yenilənməsinə ümid edirik ki, yeni təşkilat köhnə ÜAK-ın taleyini təkrarlamasın".



"Kim sənə səlahiyyət verib ki, təşkilatın adından danışırsan?"

Ş.Tağıyevin dediklərindən aydın olur ki, ÜAK-ın ləğvi və yeni təşkilatın yaradılması məsələsi Rusiya hakimiyyətinin siyasi iradəsinə bağlı məsələdir. Xatırladaq ki, F.Qurbanov bizə müsahibəsində məsələnin bu həddə çatmasında köhnə rəhbərliyin də günahkar olduğunu, hüquqi tələblərə həssas yanaşılmadığını, buna görə də məhkəmə qərarından Avropa Məhkəməsinə şikayət etməyin faydasızlığını söyləmişdi. Ancaq Ş.Tağıyev məsələdə prezident Putinin mövqeyinin önəmli olduğuna diqqət çəkib. Bu, belədirmi?

**Məsələ ilə bağlı ÜAK sədri Fazil Qurbanova müraciət etdikdə əsəbi şəkildə bunları bildirdi:**

- Bu barədə yazılanları mən də oxudum. Ancaq o adam özündən belə sözlər deyib. O adamın ÜAK-ın adından danışmağa ixtiyarı yoxdur. Ona heç kim ÜAK-ın adından danışmaq səlahiyyətini verməyib. Bilmirəm onu qızışdıran kimdir? Qabaqlar Moskva vilayətində işləyirdi, indi onun heç bir səlahiyyəti də yoxdur.

*- Deməli, burada Rusiya prezidentinin icazəsinə ehtiyac yoxdur, eləmi?*

- Təbii ki. Bu, Putinin səlahiyyətində olan məsələ deyil axı. Bu, diaspora təşkilatıdır, hüquqi məsələdir və məsələyə Ədliyyə Nazirliyi baxacaq. Putinin adını niyə hallandırır? Bu, əslində aranı qızışdırmaqdır. Şamil belə şeyləri özündən çıxarıb. Bir də təkrar edirəm, ona heç kim səlahiyyət verməyib. İxtiyarı olmadığı halda, durub böyük-böyük danışıb.

*- Fazil bəy, belə demək olarmı ki, ÜAK adından danışmaq səlahiyyəti yalnız sizdədir?*

- Əlbəttə. Mən kiməsə danışmaq səlahiyyəti verməmişəm. Üstəlik də, mən Putinlə danışmamışam. Bu, nə məsələdir? Yenə deyirəm, bu, aranı qızışdırmaqdır. Bəzi adamlar istəyirlər ki, belə bir təşkilat olmasın. Beləlləri müxalif qüvvələrdir.

*- Ötən həftə qəzetimizə demişdiniz ki, növbəti həftənin ilk günləri yeni təşkilatla bağlı yekun qərarınız olacaq. Varmı qərar?*

- Mən elə o işlərlə məşğulam. Elə sizinlə danışarkən ofisimizə gedirəm. Belə özbaşına söhbətlərə də cavabım olacaq. Səlahiyyəti olmayan adamlardır belə sözləri yayanlar. Xəbər Putinə çatsa, deyəcək bunlara bax, gör nələr danışırlar. Bu söhbətlər məqsədli şəkildə ortaya atılır. Özü də mən bilirəm bunları kimlər edir.

*- Bu qənaətə gəlmək olarmı ki, bəzi azərbaycanlılar da ÜAK-ın yenidən toparlanmasına qarşıdır?*

- Bəli, bəli. Bəzi qüvvələr var. Deyirlər almanı qurd içindən yeyər. Bizə düşmən lazım deyil, düşmən elə öz içimizdədir.

*- "Biz kadrların tərkibinin ən azı 80 faiz yenilənməsinə ümid edirik ki, yeni təşkilat köhnə ÜAK-ın taleyini təkrarlamasın" deyib. Bu barədə nə deyə bilərsiniz?*

- Xahiş edirəm, yazarsınız ki, onun heç bir səlahiyyəti yoxdur. O, heç kimdir. ÜAK-ın adından danışan adam gərək əvvəlcə məndən soruşsun. Ancaq o, heç vaxt görsənməyib.

*- Amma açıqlamasından belə görünür ki, sizi müdafiə edənlərdəndir. Bildirib ki, Fazil Qurbanova alternativ görmürəm.*

- Yaxşı, onda yazın ki, əgər dediyin kimi, mənə alternativ yoxdursa, onda niyə mənim adımdan danışırsan? Saymamazlıqdır axı bu. Deməli, sən məni saymırsan da. Kim sənə səlahiyyət verib ki, bu təşkilatın adından danışırsan? Mən gəlmişəm bu təşkilatı saxlayım... Camaat bilir ki, mən can-başla işləyirəm. 70-ə yaxın regiondan yazıblar ki, Fazil müəllim, biz sizə inanırıq, sizinlə birgə getmək istəyirik. İndi bu gəlib belə sözlər deyib. Bu, ocağa yağ tökməkdir. Onun səlahiyyəti yoxdur belə sözlər desin.

*- Deməli, ümumi mövqe budur ki, siz hüquqi yolla işinizi davam etdirirsiniz və Rusiyanın siyasi mövqeyini gözləmirsiniz?*

- Bəli, burada Putinin icazəsinə ehtiyac yoxdur. Heç bu məsələ ilə bağlı Putinin icazəsi var, ya yoxdur, söhbəti olmayıb.

*- Yeni ofisiniz sizi qane edirmi?*

- Bəli. Moskvada yerləşir. Hotelin birinci mərtəbəsində yaxşı ofisimiz var, təmir etmişik, avadanlıqlar yığmışıq. Son bir-iki iş qalıb, onlar da yekunlaşacaq. Amma artıq köçmüşük yeni ofisə.

*- İmkanlı azərbaycanlılardan sizə bu işdə kömək edən oldumu?*

- Bəli. Əlbəttə, imkanlı iş adamları bizə arxadır, onların da xeyli köməyi oldu.

❑ **Elşad PAŞASOY**

# "Amerika cənnəti"nin lotereyası



**Xalid KAZIMLI**

**Başqa ölkələrdə bu mövzu nə dərəcədə aktual və önəmlidir, bilmirəm, amma bizdə mühacirət məsələsi həssas mövzulardan biridir. Bu, əsasən ona görədir ki, ayağı yer tutan, pənah apara biləcəyi ünvanı olan, bəzən isə sadəcə cibində yolpulu və vətəndaşlıq pasportu daşıyan onminlərlə adam bu ölkədən qaçmaq istəyir.**

Qaçmaq! Sözün əsl mənasında qaçmaq. Onların arasında 5-6 ildən sonra dönüb gəlmək şərti ilə getmək istəyənlər də var, biryolluq getmək, buralara bir daha dönməmək istəyənlər də.

Birincilər üzləşdiyi maddi-mənəvi, iqtisadi-siyasi sıxıntılardan bezar olanlardırsa, ikincilər artıq vətənlərində psixoloji travma almış, bu ölkədən də, onun vətəndaşlarından da bezgin olmuş adamlardır.

Budur, rəsmən yayılan informasiyada göstərilir ki, əcnəbilərə ABŞ-da yaşamaq və işləmək izni verən "Greencard" lotereyasını almaq istəyənlər arasında Azərbaycan vətəndaşları da artıb.

Hazırda bu niyyətdə olan insanların sayı 80 min nəfər göstərilir.

Bu, hələ təkcə uzaq Amerikaya, okeanın o tayına getmək istəyənlərdir. Onlar təyyarə yolu ilə 12 saatlıq məsafədə yerləşən, əcnəbilərə sığınacağı limitlə, lotereya uduşuyla verən dövlətə pənah aparmaq fikrindədirlər.

Bir də var, avtobusla, qatarla 6-7 saatlıq, təyyarə ilə 2 saatlıq məsafədə olan qonşu dövlətlərə (Rusiya, Ukrayna, Türkiyə, Qazaxıstan) getmək istəyənlər.

Bunların sayı 80 mindən 10 dəfə, hətta 20-30 dəfə çox olar ki, az olmaz.

Hələ burası da var ki, ABŞ-da yaşamaq istəyən 80 min iddiaçının heç də hamısı bu imkanı qazana bilməyəcək, bəxt onlardan çox azının (500-nün) üzünə güləcək.

Ancaq qonşu ölkələrə, xüsusilə də Rusiyaya getmək, orada yaşamaq istəyənlərin çoxu öz niyyətlərində ciddidirlərsə, məqsədlərinə çatacaqlar. Rusiya yolunda maneə çox azdır. Yaşıl pasport, bir az pul, pənah yeri kifayətdir.

Əslində 500 nəfər potensial mühacir də az deyil. Onu da nəzərə alaq ki, bunların çoxu ali təhsilli, ingiliscə bilən, uzaq Amerikada başını saxlaya biləcəyinə inanan, ixtisaslı adamlardır.

Onlara vətənin itkisi kimi baxmaq daha düzgün olar.

Bəlkə də elə insanları mühacirət məsələsinə həssas yanaşdıran başlıca səbəb budur. Fəal, ziyalı, ixtisaslı kadrlar gedir, ölkənin intellektual potensialı, protest elektoratı zəifləyir.

Bir gün nəyə qarşısa etiraz bildirmək lazım olanda, siyasi müxaliflik ruhunu diri saxlamağa ehtiyac yarananda məlum olur ki, "qorxmaz inqilabçılar"ın bir çoxu aradan çıxıblar və yerləri boş qalıb.

Onlardan bəziləri getdikləri yerdə dəyişir, başları öz problemlərinin həllinə qarışır, vətən, ölkə dərd-səri çəkmirlər, bəziləri isə sosial şəbəkə vasitəsilə ölkədə qalanlara öyüd-nəsihət verməklə məşğul olurlar.

Bu isə pis görünür. Ölkədə qalan müxalif düşüncəli şəxslər "mühacir dissidentlər"in "ayağa qalxmaq, mübarizə aparmaq lazımdır" kimi öyüdlərini həzm edə bilmirlər.

Əslində başqa ölkələrdən də insanlar Avropaya, Amerikaya kütləvi şəkildə köç edir, yerləşirlər. Az qala Meksika əhalisinin yarısı öz şimal qonşusunda yaşamaq istəyir. Mərkəzi və Cənubi Amerikada da bu niyyətdə olan milyonlarla insan var.

Uzaq Asiyada, Afrikada, hətta Şərqi Avropada yaşayan yüz minlərlə insan da Qərbi Avropada *(Fransa, Almaniya, Belçika, İsveçrə, İngiltərə, Norveç, İsveç, Hollandiya, Danimarka)* yaşamaq istəyir.

Bu da ona görədir ki, bu ölkələrdə rifah səviyyəsi yüksəkdir. Həmin ölkələrin vətəndaşları on illərlə çalışıb-vuruşaraq, mübarizə apararaq, öz ölkələrində "cənnətməkan" təbiət və cəmiyyət inşa edib, hər cür hüquq əldə ediblər, indi də firavan yaşayırlar.

Başqa dövlətlərin, ən çox da kasıb, problemli, daxilində münaqişə olan, qonşularıyla müharibə şəraitində yaşayan dövlətlərin sakinləri isə bir addımla o "cənnət"ə daxil olmaq istəyirlər. Çünki hamının daha yaxşı, insan kimi yaşamaq kimi haqqı var.

Elə öz ölkəsinə bu və ya digər səbəbdən bağlı olan, mühacirət etmək imkanı olmayan adamlar da ona görə cırnayırlar ki, bu gedənlər kütləvi şəkildə getməsələr, bəlkə zamanla həmin "cənnət şəraiti"ni öz ölkəmizdə də bərqərar etmək olardı. İndi isə olmayacaq. Kim edəcək? Kim mübarizə aparacaq?

Bir şeyi də bilmək lazımdır ki, hələ "Greencard" qazanaraq, mühacirət etmək, avtomatik olaraq, "Amerika cənnəti"nə düşmək deyil. Orda da elə təxminən burdakı kimi, çalışmaq, işləmək, əziyyət çəkmək lazımdır. Sadəcə, orda quyudan çıxmağa çalışan adamın başından basmırlar, əlindən tuturlar.

# Şeyxdən iki istəyimiz



Zamin HACI
zaminhaci@gmail.com

**Qafqaz Müsəlmanları İdarəsinin mətbuat xidmətinin başçısı jurnalistləri qınayıbdır, deyir, bunlar bəzən özləri də bilmirlər bizdən nə istəyirlər. Bizim ölkədə jurnalistləri qınamaq ən asan üsuldur, bu baxımdan heç fikir verməzdik. Ancaq qınağın forması, məhz "bizdən nə istəyirlər" şəklində olması diqqətimi çəkdi. Şəxsən mənim bir jurnalist olaraq QMİ-dən cəmi iki istəyim vardır.**

Birincisi odur ki, danışanda doğru danışsınlar, gopa basmasınlar. Örnək üçün, elə mətbuat katibi özü o tədbirdə guya qədimi olmaqlarını əsaslandırmaq üçün deyir: "Bu qurum 1823-cü ildən Azərbaycanda fəaliyyət göstərən bir dini təşkilatdır. Belə bir təşkilatdan dünya tarixində çox az olub". Deyir məhz buna görə bizə hörmət eləməyə borclusunuz. Burada iki yalan var *(yazi parçalanıb, şaxələnib gedir, bir növ zəncirvari köşə reaksiyasına uğramışıq).* Birinci yalan odur ki, QMİ heç də 1823-cü ildə yaradılmayıb. O zaman ruslar Qafqazı işğal edəndə Tiflisdə bir şeyxülislam qoymuşdular, yəqin bunu demək istəyir. Xristian rus çarının təyin elədiyi şeyxülislam vəzifəsini tarixi uğur sayırsınızsa, mənim sözüm yoxdur, davam edin. Yəni abrı olan bu tarixin heç adını çəkməzdi. İkincisi, QMİ Sovetlər Birliyi zamanında, 1930-cu illərdə yaradılmış Zaqafqaziya Ruhani İdarəsinin əsasında müstəqillik dövrümüzdə qurulubdur. Yəni qurdalasan bunun da yaranma kökü sovet NKVD-KGB məktəbinə gedib çıxır.

Əlbəttə, çıxır-çıxsın, bununla işimiz yoxdur. Şəxsən mənim QMİ-yə, o cümlədən Allahşükür müəllimə böyük rəğbətim vardır, adamlar özləri üçün elə burada balaca, xudmani cənnətlər düzəldib yaşayırlar. Necə deyərlər, soğan olsun, nağd olsun. Elə QMİ-dən ikinci istəyim də bu kontekstdədir, necə deyərlər.

Xahiş edirəm, Allahşükür müəllim növbəti dəfə Çexiyaya gedəndə məni də aparsın, gedim bir az Praqada gəzim-dolaşım. *(Söz verirəm, pivə içmərəm, günaha batmaram).* İkiqat savab qazanar, çünki həm jurnalistəm, həm məcburi köçkünəm. Başqalarına Ərəbistan istiqamətində müftə ziyarət imkanları yaratdığından xəbərimiz vardır, ancaq məni Avropa tərəf daha çox özünə çəkir.

QMİ-dən istəklərimiz bu qədər. Hərçənd bir buddist bozqurd olaraq mən istəklərdən, iddialardan uzaq adamam. O mənada MTN generalı Elçin Quliyevin məhkəmədə son sözü zamanı *(prokuror buna 15 il həbs cəzası istəyibdir)* özünü təriflməsinə, "Mən bu ölkənin generalı olmuşam" deməsinə bir az gülməyim tutdu. Rəhmətliyin oğlu, burada general vecinə alan var? Üstəlik, generaldan çox generalımız var *(burada Mirmahmud ağanın gəlib-getmişlərini rəhmətlə yad eləyərək bir salavat verək).* Bu ölkədə dövlətə rəhbərlik edənlər olub ki, başqa ölkənin rəhbərinin xatirə kitabına "Sənin əsgərinəm!" yazıb qaçıblar. Generalmış... Əbdürrəhimbəyin qəhrəmanı demişkən, o zaman gəl min boynumuza.

Özü də bizdə qanunvericilikdə yazılıbdır ki, hamı bərabərdir. İstər prezident ol, istər köşə yazarı. İstər general ol, istər "Məhsul" stadionunda qapıçı. Hamımız bərabərik. Doğrudur, zaman-zaman bəzilərimiz "daha çox bərabər" oluruq, ancaq bunlar da bərabərliyimizin şiddətindən yaranır.

Elçin müəllim *(gör bunun adını da nə qədər uzaqgörənliklə qoyublar, bilirmişlər yekələndə el üçün, Eldar üçün özünü oda-közə vurub general işləyəcəkdir)* gərək onu mühakimə eləyənlərin də hardasa "generalni" vəzifələr tutduğunu nəzərə alsın. Bəs necə, ölkədə minimum vəzifə generaldır. Hakim-general, prokuror-general, vəkil-general... Türmələrimizdə generallardan ibarət yekə bir tabor vardır. Ulduzları da olur - tatu şəklində, silinməz. Hərə özünə görə bir generaldır.

Ümumiyyətlə, "general" qədim türk sözü olub "yenə al" ifadəsindən yaranıbdır. Al, cibini doldur mənasında yox. Get, torpaq al, qalib gəl deməkdir. Bizdə bəzi ləhcələrdə "yenə" yerinə "genə", "gene" işlənməsi indi də rast gəlinir. Bunun tərsi isə genever sözüdür, bu barədə, inşallah, Çexiyadan qayıdanda geniş yazaram.

# Avropadan "ikili standart" mehi

**Avropa Şurası (AŞ) Rusiya əleyhinə sanksiyaların ləğv edilməsi məsələsini nəzərdən keçirir. Musavat.com-un məlumatına görə, bunu xarici mətbuata müsahibəsində Avropa Şurasının baş katibi Torbyorn Yaqland bildirib. Onun sözlərinə görə, qurum belə bir qərarı Rusiyanın təşkilatdan çıxmaq ehtimalı ilə əlaqələndirib.**





# Yaqlanddan Moskvaya "quyruq", Bakıya "yumruq"...

## Azərbaycanla ultimativ dildə danışan Avropa Şurası baş katibinin Kremlə qəfil reveransının səbəbi; Krıma görə Rusiyaya tətbiq edilən sanksiyalar götürülə bilər; Bakı üçün kritik gün ərəfəsində təzadlı gəlişmə...

Baş katibin fikrincə, belə şey baş verərsə, o zaman bütün dünyada insan haqlarının qorunmasına zərbə dəyə bilər. "Rusiya qurumdan çıxsa, həqiqətən çox pis vəziyyət olar. Bu, Avropa üçün neqativ hadisə olar. Çünki onda Avropa Rusiyasız olacaq. Bu da Avropa üçün geriyə böyük bir addım deməkdir", - deyə o qeyd edib. Yaqland onu da bildirib ki, bu halda 140 milyon rusiyalı Strasburqdakı Avropa İnsan Haqları Məhkəməsinə müraciət hüququnu itirmiş olacaq.

Xatırladaq ki, iyunun 30-da Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiya nümayəndə heyətinin AŞ PA-dakı səlahiyyətləri bərpa edilməyincə 2017-ci il üçün təşkilata üzvlük haqqının dondurulacağı haqda xəbərdarlıq edib. Rusiya bu səlahiyyətlərdən 2013-cü ildə Krımı özünə zorla birləşdirdikdən sonra məhrum olub.

Öz növbəsində Ukrayna və onun tərəfdarları xəbərdarlıq ediblər ki, Rusiyanın qeyd-şərtsiz təşkilata qaytarılması Moskvaya qurumu şantaj eləmək imkanı yaradacaq, hətta zəncirvari reaksiya kimi Avropa Birliyinin (AB) də Kremlə qarşı maliyyə-iqtisadi sanksiyaların ləğvinə gətirə bilər - hansı sanksiyalar ki, 2013-cü ildən qüvvədədir və ABŞ da onlara qoşulub.

*****

Maraqlıdır ki, Krımın ilhaqına görə haqlı sanksiyalara tuş gələn Rusiya barədə narahatlıq keçirən baş katib T. Yaqlandı nədənsə Azərbaycana gələndə 10 milyonluq əhalinin Avropa Məhkəməsinə müraciət imkanından məhrum ola biləcəyi bir elə maraqlandırmır.

Yeri gəlmişkən, sabah - noyabrın 29-da onun Azərbaycanla bağlı ultimatumunun vaxtı bitir. Söhbət həbsdə olan REAL sədri İlqar Məmmədovla bağlı Bakıya ayrılan vaxtdan gedir. Məlum olduğu kimi, baş katib Yaqland Avropa İnsan Haqları Məhkəməsinin icra edilməyən qərarları ilə bağlı Azərbaycanın təşkilatdan çıxarılması kimi sərt qərarın verilə biləcəyini də mümkün sayıb.

Göründüyü kimi, Avropa Şurasının baş katibi faktiki ayrı-seçkilik edir, "ikili standart" yanaşması sərgiləyir. Obrazlı ifadə eləsək, Rusiyaya ürəyi yanıb ona "quyruq" göstərən, onun qayğısını çəkən Yaqland Azərbaycana gələndə nədənsə sərt sifətini bürüzə verir, "yumruq" göstərir. "İkili standart" da, zatən, budur.

Biz hələ onu demirik ki, Avropa Şurası bir işğalçı dövlətə - Rusiyaya qarşı sanksiyalar tətbiq elədiyi halda, digər işğalçı ölkəyə - Ermənistana qarşı eyni cəza tədbirinə əl atmaq istəmir. Şübhəsiz ki, Avropa Şurasının bir üzv dövlətinin başqa bir üzv dövlətin ərazisinin 20%-ni illərdir cəzasız şəkildə işğal altında saxlaması böyük nonsensdir. Eyni zamanda bir nəfərin *(İlqar Məmmədovun)* insan haqları ilə müqayisədə qat-qat ağır bir durumdur.

Həm də o səbəbə ki, nəticə etibarilə 1 milyona yaxın insan elementar haqlarından, o sırada öz doğma ocağında yaşamaq, işləmək haqqından məhrum edilib. Daha betəri, azərbaycanlı yaşayış məskənləri etnik təmizləmələrə məruz qalıb. Amma Ermənistana qarşı indiyədək heç bir sanksiya tətbiq edilməyib. Ermənistanın 1 nömrəli müttəfiqi Rusiyaya qarşı eyni hərəkətə görə tətbiq edilən sanksiyaları isə götürmək istəyirlər.

O zaman kim zəmanət verə bilər ki, cəzasızlığına arxayın olan Rusiya sabah başqa postsovet ölkəsinin də (məsələn, Qazaxıstan) ərazisinizin bir qismini ilhaq etməyəcək? Yəni Krım, Donbas son olmaya bilər. Çünki pis nümunə yoluxucu olur. Demək, bu, təkcə Rusiyanı deyil, elə Ermənistanı da işğala şirnikləndirmək anlamına gəlir.

*****

Əlbəttə ki, qeyd edilənlər heç də bir nəfərin (İlqar Məmmədovun və ya hansısa "x" şəxsin) haqqını tapdamağa əsas vermir. Fəqət, 1 milyon nəfərin insan haqqını görməyən şəxsin 1 nəfər haqda əndişə keçirməsi də səmimi görünmür. Səmimi ola bilməz.

Bəzi məlumatlara görə, T. Yaqlandın belə ikili yanaşmasının arxasında onun Rusiyaya və Rusiyanın hazırkı siyasi rəhbərliyinə gizli simpatiyası dayanır *(Bu barədə "Yeni Müsavat" olaraq zamanında yazmışıq).* Belədirsə, onda lap pis. O zaman cənab Yaqlandın təməl haqlardan danışmağa mənəvi haqqı çatmır. Niyə?

O səbəbə ki, rəğbət bəslədiyi Rusiya demokratik dövlət deyil. Əksinə, avroritarizmin hökm sürdüyü, siyasi və başqa haqların kobud surətdə tapdandığı, daima siyasi məhbusların olduğu dövlətdir. Hətta kriminal dövlətdir - müxalifətçi xadimlər Boris Nemtsovun qətlini, Aleksey Navalnının başına gətirilənləri yada salmaq yetər. Rusiyanın imperiyapərəst xarici siyasət kursu, Azərbaycan daxil, həmsərhəd ölkələrə yuxarıdan aşağı baxması da öz yerində.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017

**"Brüssel sammitinin bəyannaməsində Şərq Tərəfdaşlığı proqramına üzv ölkələrin ərazi bütövlüklərinin, müstəqilliklərinin və suverenliklərinin dəstəklənməsi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən bir hadisədir. Bu fakt ölkəmizin ərazi bütövlüyü ilə bağlı məsələlərdə digər Avropa təşkilatları üçün də mühüm hüquqi istinad mənbəyi rolunu oynayacaq".**

# "Ermənistan Aİ ilə münasibətlərini Rusiyanın razılığı ilə inkişaf etdirir"

## Politoloqlardan "Brüssel sammitindən Bakı, yoxsa İrəvan uduşla çıxdı" sualına maraqlı cavablar; "Ermənistan ikili oyun aparır"

**Politoloq Elçin Mirzəbəyli** Brüssel sammitinin nəticələrini "Yeni Müsavat"a şərh edərkən bunları söylədi. Qeyd edək ki, ötən həftə 6 postsovet respublikası (Ermənistan, Belarus, Moldova, Gürcüstan, Ukrayna, Azərbaycan) və Avropa Birliyi arasında "Şərq Tərəfdaşlığı" Sammiti keçirildi. Sammitdə Avrasiya İttifaqına üzv olan Ermənistan rəsmi Brüssellə əməkdaşlığın genişləndirilməsi ilə bağlı çərçivə sazişinə imza atdı. Ermənistanın Brüsseldə saziş imzalamasından bəhs edən bəzi ekspertlər işğalçı ölkənin bununla önə keçə biləcəyini, üstəlik, blokadadan xilas olacağını düşünürlər. Ancaq əks arqumentlər söyləyib rəsmi Bakının Brüsseldə ərazi bütövlüyü ilə bağlı hədəflərinə çatdığını vurğulayırlar. Ancaq E.Mirzəbəyli əmindir ki, sammitin yekun bəyannaməsində «Şərq Tərəfdaşlığı» proqramına üzv ölkələrin ərazi bütövlüklərinin, müstəqilliklərinin və suverenliklərinin dəstəklənməsi faktı Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesində hüquqi müstəvidə Azərbaycanın mövqelərini möhkəmləndirəcək və Ermənistanın Helsinki Yekun Aktının prinsipləri ilə manipulyasiya etməsinə ciddi maneə yaradacaq: "Münaqişənin real həllinə gəldikdə isə burada məsələ bir qədər fərqli yanaşma tələb edir. Çünki Azərbaycan ərazilərinin hələ də işğal altında qalmasının və mövcud status-kvonun qorunmasının əsas səbəbkarı Rusiyadır. Əgər Rusiya beynəlxalq hüquq prinsiplərinə uyğun hərəkət edən, sivil, demokratik bir ölkə olsaydı, Brüssel bəyannaməsinin Moskvanın mövqeyinə də təsir göstərəcəyini düşünmək olardı. Amma təəssüf ki, belə deyil. Rusiya üçün beynəlxalq hüquq anlayışı yoxdur. Bu ölkə hətta beynəlxalq hüququn prinsipləri ilə sivil, diplomatik formada manipulyasiya etməyi də bacarmır. Etməyə cəhd göstərəndə də bunu kobud və qəzəbli formada həyata keçirir. Lakin bu, o demək deyil ki, Azərbaycan öz mövqelərinin möhkəmləndirilməsi üçün diplomatik səylərini davam etdirməməlidir. Əksinə, bu səylər daha intensiv şəkildə davam etdirilməlidir".



Politoloq əmindir ki, bütün bu addımlar münaqişənin həlli ilə bağlı əlverişli şəraitin yaranacağı təqdirdə çox mühüm əhəmiyyətə malik hüquqi baza rolunu oynayacaq.

**Aİ ilə bağlanan müqaviləyə də 2022-ci ilə qədər İrəvana 116 milyon avro əvəzsiz yardımı, həmçinin nəqliyyat, siyasət, energetika, ekologiya ticarət və investisiya sahəsində əməkdaşlığı nəzərdə tutur. Ekspertə görə, Avropa İttifaqı ilə ikitərəfli sazişin Ermənistanı blokadadan çıxaracağı inandırıcı deyil:** "Ermənistanın blokadadan çıxması üçün yeganə çıxış yolu bu ölkənin işğala son qoyması və Azərbaycanla, Türkiyə ilə münasibətlərini bərpa edərək regional layihələrə bu və ya digər şəkildə qatılmasıdır. Bununla yanaşı, Azərbaycanın da Avropa İttifaqı ilə danışıqları intensivləşdirməsinin və ikitərəfli sazişin tez bir zamanda imzalanmasının vacibliyini düşünürəm. Ermənistan Avropa İttifaqı ilə münasibətlərini Rusiyanın razılığı ilə inkişaf etdirir. Çünki işğalçı ölkənin beynəlxalq müstəvidə maddi dəstək əldə etməsi prinsip etibarilə Rusiyanın yükünü azaldır və Moskvanın öz aqressiv siyasətini davam etdirməsi üçün müəyyən imkanlar yaradır".

**E.Mirzəbəyli hesab edir ki, Ermənistanda bütün rıçaqları əlində saxlayan Kreml bu ölkənin onun nəzarətindən çıxmayacağına əmindir:** "Rusiyanın hərbi-siyasi müttəfiqi, reallıqda isə forpostu olan Ermənistan Avropa İttifaqı ilə saziş imzaladıqdan sonra Azərbaycanın belə bir addım atmasına maneə yarada biləcək hər hansı problem də qalmır. Düşünürəm ki, Azərbaycan bundan sonra da öz müstəqil siyasətini davam etdirəcək və proseslərì öz maraqları çərçivəsindən dəyərləndirməyə davam edəcək".

**Politoloq Arzu Nağıyev də bu fikirdədir ki, Avropa İttifaqının Brüssel zirvəsində ən önəmli məqam bütün dövlətlərin ərazi bütövlüyünün, suverenliyinin, müstəqilliyinin dəstəklənməsi idi:** "Məlumdur ki, Ermənistan bunu gözləmirdi, hətta Avropa İttifaqı ilə bağlı müəyyən pessimizm... 

"Məlumdur ki, Ermənistan bunu gözləmirdi, hətta Avropanın özündə də fikir müxtəlifliyi var idi. Azərbaycan tərəfinin əsas məqsədi BMT-nin qətnamələrinin icrası və ərazi bütövlüyümüz və işğal faktının tanınması idi. Təbii ki, bu, Ermənistanın mövqeyinə zid- dir. Amma buna baxmayaraq, yekun bəyannamədə dövlətlərin ərazi bütövlüyü prinsipinin öz əksini tapması Azərbaycanın diplomatik qələbəsi kimi dəyərləndirilməlidir. Ermənistan tərəfi çox çalışırdı ki, həmin müddəalar bəyannaməyə salınmasın, çünki bu, onun məğlubiyyəti idi. Eyni zamanda Dağlıq Qarabağda qanunsuz fəaliyyət göstərən Avropanın firma və şirkətlərinə qarşı həyata keçiriləcək qadağaların bəyannamədə öz əksini tapması separatçı quruma və Ermənistanın özünə vurulan ən ağır zərbədir. Yəni Avropa Azərbaycan qanunlarına sayğı ilə yanaşır və Azərbaycanı dəstəkləyir. Təbii ki, bu, siyasi xadimlər və digər kontingentə də bir xəbərdarlıq kimi dəyərləndirilə bilər".

İmzalanan sazişin Ermənistanı blokadadan çıxaracağı barədə fikirlərə gəldikdə, A.Nağıyev Rusiya amilinə diqqət çəkməyi vacib saydı: "Yəni məlumdur ki, Ermənistanın Avropa qurumlarında hər hansı bir yer alması Rusiyanı razı sala bilməz. Yəni məqsəd Ermənistanı blokadadan çıxarmaq yox, Rusiyadan aralanmasına imkan yaratmaqdır. Burada da əsas məqam iqtisadi deyil, siyasi rıçaqlardan istifadə etməkdir. Zənnimcə, Ermənistan da bunu başa düşür və ikili oyun aparır".

Modern.az isə Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu saziş İrəvana Avrasiya İttifaqının tərkibində ola-ola Avropadan maliyyə yardımı almağa və qanunvericiliyini Avropa standartlarına uyğun etməyə imkan verəcək. İrəvandakı Qafqaz İnstitutunun rəhbəri Aleksandr İsgəndəryan isə yeni çərçivə sazişini 2013-cü ildə Serj Sərkisyanın Moskvanın təzyiqi ilə imzalamaqdan imtina etdiyi assosiativ üzvlük müqaviləsinə yaxın olduğunu xatırladıb. Onun fikrincə, gömrük qanunvericiliyini və azad ticarət zonasını çıxmaq şərti ilə, razılaşma 2013-cü il sazişinə yaxındır. "Bu müqavilə kifayət qədər yaxşı hazırlanıb. Bəzi sahələrdə Avropa Birliyi bizə yalnız ekspert, yaxud texniki deyil, maliyyə yardımı da göstərəcək. Bunun sayəsində biznes mühiti, sərhəd nəzarəti və s. yaxşılaşacaq"-ekspert əlavə edib.

❑ **Cavid TURAN**

# Qapıları çırpıb getsək...



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Noyabrın Azərbaycana vəd elədiyi bir müşkülü adladıq. Söhbət Avropa Birliyinin (AB) Brüssel sammitinin yekun bəyannamə layihəsində ermənilərin səyi ilə yer almış ərazi bütövlüyümüz əleyhinə bəndin çıxarılmasından gedir. Noyabrın 29-u isə Avropa Şurası-Azərbaycan münasibətləri tarixində kritik gün ola bilər. REAL sədri İlqar Məmmədovla bağlı verilən möhləti nəzərdə tuturuq.**

Ümid edək ki, bu problem də ikitərəfli əlaqələrə xələl gəlmədən aradan qalxacaq. Hər necə olmasa, Avropa Şurası Azərbaycana gərək olduğu kimi, Azərbaycan da quruma lazımlı ölkədir. Ona görə ki, əks halda, bu "siyasi boşanma" Azərbaycanı Rusiya və İran tərəfə itələyə, uduşda ən çox Rusiya olardı.

Aydındır ki, o halda Kremlin regionda mövqeləri daha da möhkəmlənə, onun Qərbə qarşı koalisiya imkanları genişlənə bilər. Rusiyanın isə bizə, Azərbaycana, Qarabağ məsələsinə yanaşması bəllidir. Putin hələ də SSRİ-nin reanimasiyasına ümidini itirməyibsə, nədən danışırıq?

Bu mənada Ermənistanın Brüsseldə AB ilə çərçivə sazişi imzalaması kifayət qədər hiyləgər gediş sayıla bilər. Fakt budur ki, düşmən ölkə bu məsələdə də bizi qabaqlayıb. Niyəsi ayrı mövzudur. Bəzi obyektiv və subyektiv səbəblər gətirilir. Lakin faktdır ki, Ermənistan, həm də işğalçı Ermənistan Rusiyanın forpostu ola-ola bizdən qabağa düşməyi bacarıb. Deyilə bilər ki, bu formal bir sənəddir. Ancaq Avropaya, Qərbə jestdir, hətta müəyyən mənada Qərbə açılmaq jestidir, təhlükəsizlik anlamında isə gələcəyə hesablanmış gedişdir.

Məntiqlə, bütünlüklə Rusiyadan asılı olan Ermənistan hazırkı qəliz durumunda da mümkün olanı edirsə, Azərbaycan bunu çoxdan reallaşdıra bilərdi. O zaman əminik ki, Bakının Avropa Şurası ilə münasibətlərinə də çox mühüm bir ılıqlıq gələ, bizə düşmən dairələrin ağzı xeyli yumula, arqumentləri kəsərsiz hala gələrdi.

Bir daha vurğulamaq zərurəti var ki, unikal tribunlardan biri olaraq, Avropa Şurası ilə əlaqələrə son vermək olmaz - nə biz tərəfdən, nə o tərəfdən. Ələlxüsus biz tərəfdən. Çünki istəsək də, istəməsək də, dünya reallıqları var və onları ciddiyə almaq zorundayıq. Məhz həmin reallıqlar on illərdir Qarabağ probleminin həllini mümkünsüz edir. O zaman niyə də bu reallıqları öz ziyanımıza daha da qəlizləşdirək?

Şübhə yox ki, Avropa Birliyi ilə problem ən əvvəl ölkə prezidentin şəxsən Brüssel sammitində iştirak və çıxış eləməsi ilə bağlı oldu. İndi təsəvvür edin ki, biz heç yerdə yoxuq. Hər yerdən də küsmüşük. O zaman ermənilər hansı hoqqalardan çıxardı? Məsələn, hamı bilir ki, Rusiya KİV-lərində başabəla erməni "ekspertlər" əməlli-başlı kök salıb. Özü də onlar təkcə etnik ermənilər deyil. Ən betəri, ermənilər başqa millətlərdən olan politoloqların da bir qismini öz tərəflərinə çəkə, tələlərinə sala biliblər.

Yeri gəlmişkən, o gün Rusiya telekanallarının analitik verilişlərinin birində polyak əsilli ekspert iddia edirdi ki, Dağlıq Qarabağ Ermənistana məxsusdur. O hətta "Arsax" sözünü işlədirdi. İndi bir var, erməni bizə qarşı torpaq iddiasından danışa, bir də var qeyri-erməni bu cəfəngiyatı dilə gətirə - özü də Rusiyanın tanınmış telekanalında. Üstəlik, bir erməni politoloqunun da qatıldığı həmin verilişdə bizim mövqeyimi yalnız tanınmış telejurnalist Maksim Şevçenko qoruyurdu. Azərbaycan kökənli ekspert isə yox idi. Bəs bizim Rusiyadakı diaspor qurumlarımız, səfirliyimiz, konsulluqlarımız?

Yəqin ki, onlar nəsə edirlər. Fəqət, azdır. Anlayırıq ki, ermənilərin Rusiya və Avropa KİV-lərində, aparıcı Qərb dövlətlərində güclü iş aparması daha çox tarixi və dini (xristian) aspektlərlə bağlıdır, ruslar da daxil, xristian dünyasının ermənilərdən 200 ildir maşa kimi istifadə eləməsi ilə ilgilidir. Madam belədir, o zaman Rusiya ilə, Avropa ilə, onların ictimaiyyətləri ilə daha fəal işləməliyik.

Buna isə qapıları çırpıb getməklə, olan-qalan dost-müttəfiqləri və tribunaları itirməklə nali olmaq qeyri- mümkündür! Bu erməniyə əla sürpriz olardı. Lenin hər kim olsa da onun yaxşı bir sözü var: "Təhlükəni gözləməkdənsə, ona qarşı getmək daha yaxşıdır". Təhlükə deyəndə biz erməni təbliğat maşınlarının "yuvaları"nı nəzərdə tuturuq. Yəni oralara kimi getməyi hədəfləməliyik.

Azərbaycanda oturmaqla, özümüz deyib özümüz eşitməklə, hamıdan küsməklə Qarabağ həqiqətini dünyaya qəbul etdirmək çətin olacaq. Olanımızın qədrini bilək. Toleyran demiş, "Düşmənlərin sayını artıran siyasət yaxşı siyasət deyil". Xüsusən də indiki durumumuzda...



# Ermənistan çevrəsini niyə genişləndirdi?..

Hüseynbala SƏLİMOV

**İmzaladıqları "saziş"in məzmunu xeyli dərəcədə suallar doğursa da və hələ də bir çoxu buna görə Rusiyanın İrəvanı cəzalandıracağını zənn etsələr də, ermənilərin növbəti oyunu baş tutdu: onlar Avropa Birliyi İlə saziş imzalamağa müvəffəq oldular.**

"Qonşular"ımızın Avropaya da yerikləməsinin səbəbləri haqqında yetərincə yazmışıq. Ən birincisi budur ki, haylar heç də Rusiyanın geosiyasi ssenarilərinin passiv komponentləri deyillər, bunların da, necə deyər, "milli planları və hədəf"ləri var.

Hətta Rusiyanın regiondakı indiki siyasəti belə onları qane etmir. İstəyirlər ki, Rusiya özünün bütün regional geopolitikasını Ermənistanın maraqlarına və milli sayıqlamalarına tabe etsin.

Rusiya isə regionun ən böyük dövləti kimi bunu edə bilməz, çünki planlarında Azərbaycan və Gürcüstan da var. Ermənistan isə bu planları gerçəkləşdirmək yolunda yalnız bir həlqədir.

Ermənilər bunu anlayır və təəccüblü deyildir ki, Kremldən tam asılılıq onları da "sıxır", manevr imkanlarını daraldır, ona görə də hətta onlar da Rusiyaya təzyiq etməyin imkanlarını axtarırlar. Bunun isə daha bir yolu siyasi əlaqələri və kanalları genişləndirməkdir.

Etiraf edək ki, bu xüsusda müəyyən nəticələri də var. Məsələn, ABŞ və Fransa kimi dövlətlər üçün Ermənistan hər hansı bir mənada maraq kəsb etmir.

İqtisadi əməkdaşlıq və investisiyalar yatırmaq baxımından o, tam perspektivsizdir, üstəlik, Rusiyadan fərqli olaraq, nə ABŞ, nə də xüsusən Fransa, onu özünün regionda geosiyasi platsdarmına çevirmək, kremlsayağı desək, ondan özləri üçün regionda "forpost" düzəltmək fikrində də deyillər. Bu ölkələrin siyasətçilərinin hesablaşmağa məcbur olduqları bircə amil var: o, da dövlətlərindəki erməni əsilli seçicilərdir!

Bundan savayı, nə ABŞ-ın və nə də Fransanın bu axmaq ölkə ilə bağlı hər hansı planı yoxdur. Əgər gələcəkdə belə plan meydana çıxarsa, bilin, bunu da onların beynində həmin dövlətlərdəki ermənilər doldurub!

Bu, məsələnin bir tərəfi. Digər tərəfdən, dedik ki, Rusiya özünün regiondakı geosiyasi planlarını tamamilə Ermənistanın maraqlarına tabe edə bilməz.

Bu kontekstdən də yanaşanda, son vaxtlarda Rusiya-Türkiyə kontaktlarının intensivləşməsi və eləcə də Rusiyanın müxtəlif geosiyasi və geoiqtisadi layihələrində, MDB-dən tutmuş Avrasiya İqtisadi Birliyinədək ən müxtəlif qurumlarda türk respublikalarının hiss olunacaq dərəcədə yüksək çəkisi də, heç şübhəsiz, hayları az qayğılandırmır. Axı bu axmaq millətin "hədəf"ində təkcə Azərbaycan deyildir, bunlar özünü türk adlandıran hər kəsi düşmən hesab edirlər, məqsədləri də hissə-hissə Azərbaycanın və Türkiyənin torpaqlarını ələ keçirmək və özlərinin mifiq "böyük Hayastan"larını yaratmaqdır! Bu səbəbdən də yeni və alternativ kanallar arayırlar.

İndi AB ilə də sazişi imzaladılar. Moskva da bu və ya digər səbəbdən buna imkan verdi. Düşünürlər, axıra qədər "iki stul"da əyləşə biləcəklər. Amma özlərinin analitikləri belə artıq təbil döyür ki, gec-tez Ermənistan da seçim qarşısında qalacaq və onda Rusiya ilə Qərb arasında yaranacaq ziddiyyətlərin qurbanı olacaq.

Üstəlik, saziş onlara yaxın vaxtlarda böyük perspektivlər, ələlxüsus da sürətli iqtisadi dividentlər vəd etmir, çünki daha çox siyasi bəyannamə xarakterlidir, həm də şərq tərəfdaşlığı konsepsiyasının spesifikası bir az başqadır.

Uzağı, İrəvana gələcəkdə hansısa kreditlər verə bilərlər. Amma onları da qaytarmaq lazım gələcək.

Həm də ölkə iqtisadiyyatı elə vəziyyətdədir ki, onu kredit verilə bilən səviyyəyə çatdırmaq üçün xeyli işləmək və çox ciddi islahatlar aparmaq tələb olunur.

Bilirsiniz, ən maraqlısı nədir? Bu axmaq xalq sadə bir həqiqəti qəbul etmək istəmir. Bu həqiqətsə həm insanlar, həm də elə dövlətlər arasında qurulan münasibətlərin meyarı olmaq gücündədir.

Hər bir ölkə öncə özünün YAXIN COĞRAFİ ÇEVRƏSİNDƏ özü üçün ƏLVERİŞLİ FON yaratmağa çalışmalıdır, çünki ilk növbədə QONŞULARLA SÜLH hər dövlətin inkişafının və təhlükəsizliyinin ən ümdə şərtidir! Bu axmaq millətsə bunu qanmaq istəmir.

Deyirlər ki, Ermənistan regional layihələrdən kənar qalıbdır. Amma bunların vəziyyəti daha dəhşətlidi, fakitiki olaraq coğrafi cəhətdən təcrid olunublar! Azərbaycan və Türkiyəylə münasibətləri yoxdur, Rusiya ilə bilavasitə coğrafi sərhədlərə malik deyillər, Gürcüstanla tamamilə soyuq münasibətlərdədirlər! Tək İranla azacıq əlaqələri vardır ki, İnşallah, gec-tez onu da bağlayarıq.

Amma bunların AB ilə saziş imzalaması, bizim üçün də müəyyən nəticələr hasil edir: Avrasiya Birliyinin və Gömrük İttifaqının, üstəlik, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistan bunu edə bilirsə, deməli biz də edərik və ən əsası da etməliyik, çünki heç bir tribunanı bu axmaq xalqın ixtiyarına buraxmaq olmaz...

---

# NATO-ya alternativ - "Avropa NATO-su": Azərbaycan nə etməli?

**Avropa İttifaqı ölkələrinin yarıdan çoxunun yaxın zamanlarda "Avropa müdafiə paktı"nı - Avropada daimi strukturlaşdırılmış əməkdaşlıq haqqında sazişi (PESCO) imzalayacaqları ilə bağlı gedən söz-söhbətlər səngimək bilmir. İmza atmağı planlayan ölkələrin rəsmi olaraq bu ilin dekabrında keçiriləcək Avropa Birliyi zirvəsində elan ediləcəyi gözlənilir.**

dIr? Bununla bağlı müxtəlif fikirlər var. "Avropa NATO-su" yaradılarsa, rəsmi Bakının qoşulub-qoşulmamasının verə biləcəyi nəticələrlə bağlı fikirlər də birmənalı deyil.

**İqtidaryönlü deputat Zahid Oruc bildirdi ki, burada ən çox söhbət "soyuq müharibə"nin qalibi olan NATO-dan gedir:** "Qalibiyyət NATO-nun qlobal miqyasda hökmranlığını getdikcə gücləndirdi. SSRİ-nin süqutundan sonra ABŞ NATO-da hərbi qərarlarda da dominantlığını qoruyub saxlayır. Əfqanıstan, İraq kimi yerlərdə verilən qərarların Ağ Ev tərəfindən verildiyi heç kəsdə şübhə doğurmur. Sonuncu Brüssel sammitinin NATO kölgəsi altında keçdiyini düşünürəm. Bu fikirlərimin bir sıra əsasları var. Avropa İttifaqı ölkələrinin Brüssel sammitində NATO baş katibinin o ölkələrin rəhbər şəxslərini qəbul etməsi, ondan sonra da "Azərbaycanın bugünkü vəziyyətdə nə edə biləcəyi ilə bağlı deyə bilərəm ki, 90-cı illərdəki strategiyamız artıq xeyli dəyişib. Əvvəlki illərdə daha çox proqramlara qoşulurduqsa, amma indi belə deyil. Rusiyanın regionda güclənməsi fonunda, eləcə də Amerikanın Barak Obama dövründə İranla münasibətləri yumşaltmaq xətti götürməsi bizim xarici siyasətdə müəyyən qədər korrektələr etməyimizə səbəb ol-

## Zahid Oruc: "Amerikasız NATO real deyil, NATO elə ABŞ deməkdir..."

PESCO tərəfdarları layihənin NATO-ya alternativ deyil, daha çox tamamlayıcı rol oynadığını qeyd etsələr də, əksər ekspertlər Avropa NATO-sunun yaradılacağını proqnozlaşdırırlar. Yeni yaradılacaq qurumun isə birbaşa Amerikanın maraqlarına zərbə olacağı deyilir.



İndiyədək NATO kimi güclü bir qurumu nəzarətində saxlamağı bacaran Ağ Evin getdikcə bu imkanlardan məhrum olduğu açıq şəkildə görünür. Başqa sözlə, Amerikasız yeni NATO-nun formalaşmaq üzrə olduğu qeyd olunur.

Bəs Azərbaycan mövcud situasiyada necə davranmalı-

isə bu qurum sıralarını genişləndirdi. ABŞ-ın NATO üzərindən yürütdüyü siyasət dünyanın müxtəlif qitələrində hər zaman dartışılır. Xərclərinin böyük hissəsini qarşılayan Atlantik Şuranın iclası yaddaqalan oldu. Məhz bu səbəbdən sammitin NATO kölgəsi altında keçdiyini deyirəm. Digər tərəfdən, Avropanın Birləşmiş Ştatlar modelində güclü bir hərbi-siyasi təşkilat formalaşdırmaq ideyaları çoxdan var. Siyasi NATO nəzəriyyələrinin, sadəcə, bir təşəbbüs olaraq ortalıqda qaldığı da məlumdur. Açığı, NATO-nun ayağı Avropada nə qədər möhkəmləndirilsə də, onun Amerikadan kənarda qalması qeyri-mümkündür. Amerikasız NATO real deyil. NATO elə ABŞ deməkdir".

**Deputat rəsmi Bakının mövqeyinə də aydınlıq gətirdi:**

du. İndi Azərbaycan NATO ilə münasibətlərini yüksək səviyyədə qoruyub saxlamasına rəğmən, bu quruma üzvlük üçün can atdığını qətiyyən bəyan etmir. Düşünürəm ki, bu çox doğru yanaşmadır. Çünki regional dövlətlərin xarakteri bizə onu deyib ki, hər bir halda toqquşma meydanına dönməməlisən. Azərbaycan son dərəcə ehtiyatlı, dəqiq hesablanmış xarici siyasət aparır. Bu siyasət iradəmizdən kənar hansısa bloklara qoşularaq, onun nəticəsində digər dövlətlərin əleyhimizə təxribatlarına səbəb olmasın kimi bir fəlsəfəyə dayanır".

❑ Cavanşir ABBASLI

---

# Tramp Güləni təhvil verəcəkmi?

## Ekspertlərin rəyinə görə, bu məsələdə həlledici sözü ABŞ prezidenti demir

**Son günlərdə Amerikanın Pensilvaniya ştatında yaşayan FETÖ lideri, Türkiyədə ötən il baş verən 15 iyun qiyamının səbəbkarı Fətullah Gülənin qardaş ölkəyə ekstradisiyası yenidən gündəmə gəlib. Xüsusilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın amerikalı həmkarı Donald Trampla telefon danışığı zamanı onun Gülənin ekstradisiyasına baxacağı ilə bağlı verdiyi söz məsələni daha da aktuallaşdırıb.**

"Mən növbəti dəfə Trampdan Gülənin ekstradisiyasını xahiş etdim. O, bu məsələyə baxacağına söz verdi", - Ərdoğan bildirib.

Amerikanın FETÖ liderini Türkiyəyə verib-verməyəcəyi ilə bağlı mövqelər fərqlidir. Ağ Evin bu addımı atacağına inanan və inanmayanlar kifayət qədər çoxdur.

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli hesab edir ki, bu məsələ təkcə Trampın səlahiyyətində deyil:** "Fikrimcə, bu məsələ təkcə Trampın səlahiyyətində olsa, o, Güləni çoxdan təhvil verərdi. Tramp seçiləndən ona, ümumiyyətlə, işləməyə imkan vermirlər. ABŞ tarixinin elitalar qarşıdurmasının pik nöqtəsini yaşayır. Ona görə inandırıcı deyil ki, Gülən türk hakimiyyətinə təhvil verilsin. Tramp özü şəxsən Ərdoğanla münasibətlərin düzəlməsinin, hətta dost olmasının da tərəfdarıdır. Təəssüf ki, Trampa prezident kimi işləməyə hələlik imkan verilmir. Konqres, Senat, Pentaqon, hətta Ağ Ev də Trampa maneçilik törədir. Tramp administrasiyası Güləni təhvil versə, ilk öncə ABŞ-Türkiyə əlaqələri düzələcək. Gülənin ekstradisiyasından ABŞ-ın nüfuzuna heç bir zərər gəlməyəcək. Sadəcə, bu məsələ təkcə Trampın əlində olmadığı üçün Gülənin ən azı yaxın zamanlarda Türkiyəyə ekstradisiyasını mümkünsüz görürəm".



**Politoloq Nəzakət Məmmədova hesab edir ki, Gülən məsələsi ABŞ və Türkiyə arasında son 65 ildə ən dərin böhrana səbəb olub:** "Ankaranın Rusiyadan S-400 kompleksi alması, Suriyada Rusiya və İranla eyni mövqedən çıxış etməsi, YPG/PYD-yə fərqli münasibətdən çıxış etməsi, Türkiyə ilə ABŞ arasında mövcud olan mühüm fikir ayrılığı yaradan məsələlər sırasında ön planda yer tutur. Türkiyənin öz ənənəvi müttəfiqi ABŞ-ı Gülən tərəfdarları vasitəsilə ölkədə çevriliş cəhdində ittiham etməsi olduqca ciddi ittihamdır və ABŞ-Türkiyə münasibətlərinin AKP iqtidarı dövründəki inkişafı bundan çox asılı olacaqdır. ABŞ-ın Güləni təhvil verməsinə gəlincə, burada bir neçə versiya irəli sürmək mümkündür. Artıq onu müşahidə edirik ki, Tramp Obamanın həyat keçirdiyi xarici siyasət kursunu dəyişməkdədir. Türkiyədə çevriliş cəhdi Obama administrasiyasının dövründə baş vermişdi və Tramp administrasiyasının bu məsələyə ABŞ-ın xarici siyasət maraqlarından başqa, həm də öz yanaşması ola bilər və bu kontekstdən çıxış edilərsə, Gülənin təhvil verilməsi reallaşa bilər. Vaşinqton bir qayda olaraq müttəfiqi olan dövlət başçılarını, şahları, agentura şəbəkəsinin üzvlərini lazım olmadığı gərəksiz bir şəxs kimi üzərindən xətt çəkə bilir. Gülən də bu məsələdə istisna deyil. Lakin burada mühüm bir məqam var ki, Türkiyə Güləni Vaşinqtonun dəstəyi ilə çevriliş cəhdində ittiham edir. Əgər Vaşinqton Güləni ekstradisiya edərsə, şübhəsiz ki, Türkiyə onu terrorçu kimi ömürlük həbsə atacaq. Hətta məhz 15 iyul çevriliş cəhdindən sonra Türkiyədə ölüm hökmünün bərpası məsələsi gündəmə gəlib və əgər belə olarsa, Gülən ölüm hökmünə də məhkum edilə bilər".

**Xanım politoloq Gülənin cinayətinin də sübut olunacağına şübhə etmir:** "Gülənin FETÖ adlı terrorçu təşkilat yaratmasının və çevriliş cəhdinin arxasında Vaşinqtonun durması da təbii ki, ittiham aktında var və sübut ediləcək. Belə olduğu halda, Vaşinqton özü çətin duruma düşə bilər. Çünki müttəfiq ölkə ərazisində onun daxili işlərinə müdaxilə etməklə qeyri-qanuni yolla hakimiyyəti dəyişdirmək cəhdi həm ABŞ-ın beynəlxalq nüfuzuna ciddi xələl gətirə bilər, eyni zamanda digər müttəfiq ölkələrin Vaşinqtona inamını azalda, ölkə daxilində narazılıq yarada bilər. ABŞ-ın bir NATO ölkəsində, müttəfiq dövlətdə çevriliş etmək istəməsi böyük hay-küyə səbəb ola bilər. Hazırda bəzi qlobal məsələlərdə, əsasən Yaxın Şərqə öz mövqelərindən geri çəkilən ABŞ-ın beynəlxalq nüfuzuna üstəgəl bu məsələdən dolayı xələl gəlməsi Vaşinqtonun maraqlarına uyğun deyil və ehtimal ki, o, 2019-cu il seçkilərində AKP iqtidarının başqa partiya ilə, yaxud ən azından təkbaşına hakimiyyətinə son qoyularaq koalisiya ilə əvəzlənməsinə çalışaraq, Gülənin ekstradisiyasını təxirə sala bilər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017

# Regionda terror təhdidi - Gürcüstanda antiterror əməliyyatı başa çatdı

**Noyabrın 22-də Tiflisin İsani-Samqori rayonu ərazisində həyata keçirilən antiterror əməliyyatı gündəmə bomba kimi düşüb. 17 saat davam edən əməliyyatda İŞİD üzvləri olan çeçen əsilli 3 terrorçu öldürülüb, biri isə sağ ələ keçirilib. Əməliyyatda Türkiyədə 2016-cı il 28 iyunda "Atatürk" hava limanında törədilən qətliamın təşkilatçılarından biri "Tək qol" ləqəbli Əhməd Çatayev zərərsizləşdirilib.**

Terrorçu Türkiyədə təşkil etdiyi qətliamdan sonra adamları ilə birgə Türkiyədən Gürcüstana qaçaraq çeçen əsilli Aslanbek Cəbrayılov adına qeydiyyatda olan dairəyə yerləşib. Çatayev 2012-ci ildən terrorçu İŞİD qruplaşmasının dəstəbaşılarından olan Ömər Şişani ilə birlikdə fəaliyyət göstərib.

Avropaya sürətlə inteqrasiya edən və indiyə qədər terror təhlükəsi ilə üzləşməyən Gürcüstandakı antiterror əməliyyatı onun qonşuluğunda yerləşən dövlətləri də ciddi narahat edib. Son illərdə ard-arda ağır məğlubiyyətlər alan İŞİD terror təşkilatı üzvlərinin dünyanın müxtəlif yerlərinə səpələndikləri barədə hələ aylar öncədən xəbərlər yayılmışdı. Xüsusilə terrorçuların daha çox öz ölkələrinə qayıtmağa üstünlük verdikləri deyilirdi.

Qonşu Gürcüstanın terror hədəfi ilə üzləşməsi Azərbaycanı da ciddi narahat edir. Xüsusilə ölkəmizə Gürcüstan üzərindən terrorçuların keçə biləcəkləri barədə həyəcan təbili çalınır. Hətta son əməliyyatda zərərsizləşdirilən terrorçuların Azərbaycan, yaxud digər qonşu bir ölkəyə keçmək planlarının olduğu da istisna edilmir.

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev Gürcüstanın fonunda heç bir dövlətin terrordan sığortalanmadığını qeyd etdi:** "Heç vaxt proqnoz vermək olmur ki, terror olmayacaq. Gürcüstanda son iki gündə baş verən hadisələr bir çox mətləblərin üstünü açdı. Gürcüstanda belə hadisə ilk dəfə yaşanmır. Pankisi dərəsində çeçen hadisələri baş verəndə Gürcüstan ərazisində həmin hadisələr baş verirdi. Terrorun əsas mənbələrindən biri də Pankisi idi. Oradan Gürcüstan və digər istiqamətlərə terrorçuların axını var idi. Bu gün terrorun bu şəkildə miqyas alması müəyyən mətləblərdən xəbər verir. Suriya və digər yerlərdə döyüşən terrorçular artıq qayıtmağa başlayıblar. Azərbaycanın şimalında da bu məsələ hələ öz həllini tam tapmayıb. Orada da müəyyən qüvvələr var. Sadəcə olaraq, Azərbaycan əməliyyat şəraitinə daha düzgün nəzarət edir. Digər tərəfdən, hüquq-mühafizə orqanları və Cinayət Məcəlləsində olan bəzi dəyişikliklər də bu car halların azalmasına səbəb olub. Lakin buna baxmayaraq, Suriya və İraqda əməliyyatlar başa çatandan sonra oradakı terrorçular geri qayıda bilərlər. Bu o demək deyil ki, onlar silahlı surətdə qayıdıb gələrlər. Öz yerlərində onlara biət etmiş şəxslərə müəyyən işlər qurmaq üçün də onlar geri dönməyə cəhd edə bilərlər. Tək onu demək mümkün deyil ki, onlar gəlib özlərini partladıb terror aktı həyata keçirəcəklər. Proseslər davam edir. Hüquq-mühafizə və təhlükəsizlik orqanlarının üzərinə çox mühüm vəzifələr düşür. Terrorçuların miqyası olmur. Onların hər yerdə adamları var, bunlara hər yerdə biət etmiş şəxslər mövcuddur. Tək onların bura gəlib nəsə edə biləcəklərini də düşünmək doğru deyil. Daxildən də nələrsə edə bilərlər. Amerika kimi terroru təhdid kimi qəbul edən dövlətdə son beş ayda 20-yə yaxın terror aktı həyata keçirilib. Baxmayaraq ki, din və başqa məsələlərlə bağlıdır".





**Arzu Nağıyev:** "Azərbaycan əməliyyat şəraitinə daha düzgün nəzarət edir"

**Zəlimxan Məmmədli:** "Gürcüstanda baş verən hadisələr dolayısı ilə ölkəmizə də təsir göstərir"

**"Borçalı" Cəmiyyətinin sədri, siyasi şərhçi Zəlimxan Məmmədli bildirdi ki, Gürcüstanda hadisə ilə bağlı istintaqı aparanlar dərin qatlarda nələrin olduğunu bilə bilərlər:** "Azərbaycanda da bu əməliyyatlar zaman-zaman keçirilib. Gürcüstan hazırda konkret demokratik dünyaya inteqrasiya yolunu tutub. Bunun qarşısını hər hansı formada almaq cəhdləri artıq Gürcüstanda keçmir. Bu da Rusiya və İran kimi qonşu dövlətlərimizin maraqlarına uyğun deyil. Türkiyə-Azərbaycan-Gürcüstan arasında bir sıra iri layihələrin həyata keçirilməsi, regional təhlükəsizlik məsələlərinin əməkdaşlığa qədər müzakirə edilməsi qonşu dövlətləri narahat edir. Hətta NATO sərhədlərinin Rusiyaya qədər yaxınlaşmasını istəmirik deyən Putin var. Bu baxımdan Gürcüstanın NATO-ya inteqrasiyası, Avropa Birliyi ilə gediş yolları açıldıqca bu cür təxribatlar ola bilər. Burada Gürcüstanı xaosa çəkmək cəhdləri də ola bilər. Əksini Gürcüstan edib Rusiyaya tərəf yönəlsə, o zaman NATO təzyiqlərinin altında qalacaq, bu baxımdan Gürcüstanın Avropa yolunda gedişi geridönməz bir prosesdir. Bu cür gərginliklərin bundan sonra baş verməsi qaçılmazdır. Azərbaycan çox ciddi strateji bir ölkə olduğundan, xəyallarda qurulan ölkə olduğundan ciddi nəzarət altındadır. Gürcüstanda baş verən hadisələr dolayısı ilə ölkəmizə də təsir edir".

❑ **Cavanşir ABBASLI**

# Rusiyada Azərbaycan tərəfdarlarının sayını necə artıraq?

## Bu ölkədəki səfirliyimizin görməli olduğu işlər sırasında fikir və sənət adamlarını öz tərəfimizə çəkmək olmalıdır

**Rusiyanın "Birinci kanal"ında yayımlanan "Zaman göstərəcək" tok-şousunda polyak millətçisi Tomaş Matseyçukla rusiyalı politoloq Maksim Şevçenko arasında mübahisə yaşanıb.**



Mübahisəyə səbəb tok-şouda Rusiyanın müttəfiqi sayılan Ermənistanın "Şərq Tərəfdaşlığı"na qoşulması olub. Matseyçukun "Şərq Tərəfdaşlığı"nı demokratiyanın və avropalaşmanın postsovet məkanında yayılması vasitəsi kimi qələmə verməsi Şevçenkonun etiraz etməsi ilə nəticələnib. Bu zaman Şevçenkonun "Şərq Tərəfdaşlığı"nı yeni nizam adlandırması ilə razılaşan polyak millətçi "Şərq Tərəfdaşlığı" yeni Avropa nizamının yaradılması üçün vasitədir" deyib.

Daha sonra Matseyçuk Şevçenkoya Ermənistanın düşməni olub-olmaması ilə bağlı sual verib. Şevçenko isə düşünmədən "Rusiyanın müttəfiqi olan ermənilər bizim də müttəfiqimizdir, sizin müttəfiqiniz olanlar isə düşmənimizdir" deyib.

Matseyçukun "Bəs Qarabağ kimindir" sualına Şevçenko sərt şəkildə "Qarabağ Azərbaycan ərazisidir. Azərbaycanın taleyi isə Moskva, Ankara və Tehran arasındakı üçtərəfli razılaşma ilə həll edilməlidir" sözlərini söyləyib. Matseyçuk isə daha sonra Şevçonkaya cavabında onunla razılaşmadığını bildirir: **"Bir polyak kimi deyirəm. Qarabağ Ermənistanındır, buna görə də Ermənistan bizimlə olacaq, buna görə də Ermənistan bizim müttəfiqimiz olacaq. Ona görə ki, siz ruslar azərbaycanlılara silah satırsınız, azərbaycanlılar isə sizin müttəfiqlərinizi öldürürlər. Bu ikiüzlülükdür. Siz ermənilərin müttəfiqi deyilsiniz".**

"Yeni Müsavat" xatırladır ki, bundan öncə də M.Şevçenko bir neçə tədbirdə Azərbaycanla bağlı pozitiv tonda danışıb. O, son olaraq Brüsseldə keçirilən forumda Ermənistan əleyhinə sərt fikirlər səsləndirib. Bununla da ictimai müzakirələrdə Rusiyada diasporanın bu istiqamətdə işləyə biləcəyi ilə bağlı fikirlər səslənməyə başladı. Yəni bu cür intellektual insanlarla işləmək, onları Azərbaycanın tərəfinə çəkmək hər zaman üçün müsbət effekt verə bilər. Bundan başqa, diaspora daim bu cür adamlarla əlaqədə olmalı, onları ölkənin problemləri ilə bağlı bilgiləndirib, ölkəmizin haqq səsini çatdıranlardan birinə çevirməlidir.

Bu günlərdə "Yeni Müsavat"a müsahibə verən akademik Fazil Qurbanov da diaspora fəaliyyəti ilə bağlı atacağı addımlar sırasında bunları deyib: **"Əsasən də cavanlarımızı bir yerə toplamağa çalışacağıq. Baxın, digər diaspor təşkilatlarında daha çox cavanlara diqqət verirlər. Gənclər bizim gələcəyimizdir, odur ki, gərək onları - Rusiyadakı gənclərimizi işlə təmin edək, yaxşı jurnalistlər, istedadlı mütəxəssislər yetişdirək. Gərək elə edək ki, bizi tanısınlar, sözümüzü eşitsinlər, əsas budur. Görün onların nə qədər jurnalistləri var ki, hər yerdə çıxış edirlər. Ona görə də cavanları oxutmaq lazımdır. Elə mən də istəyirəm ki, bizim radio kanalımız olsun".**

Heç kimə sirr deyil ki, qonşu ölkələr arasında Rusiya azərbaycanlıların ən çox yaşadığı ölkələr siyahısındadır. Bu ölkədəki səfirliyin də görməli olduğu işlər sırasında rusiyalı fikir və sənət adamlarını öz tərəfimizə çəkmək olmalıdır. Bundan başqa, Fransa ermənilərin ən çox yaşadığı və ən güclü diasporun fəaliyyət göstərdiyi bir ölkədir, Rusiya və ABŞ-da güclü erməni diasporu fəaliyyət göstərir. Amma Azərbaycanın bu ölkələrdəki diaspor təşkilatlarında ziyalıların cəmləşdirməsi, icmalar arasında əlaqələrin yüksək səviyyəyə çatdırması həmin ölkələrdəki erməni diaspor təşkilatlarına çox ciddi zərbə vurmaq imkanı yaradır. Faktlar isə sübut edir ki, diaspora təşkilatlarımızın fəaliyyətləri əsasən baş verən hadisələrə münasibətdə bəyanat verməklə məhdudlaşır. Bu isə ortaya bir çox hallarda bizi ermənilərə söz savaşında uduzduran mənzərələrin yaranması ilə müşayiət olunur.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017




# Sinay terroru nəyin cəzasıdır?

## Bütün əlamətləri ilə sifariş olduğu görünən terrorun Misir prezidentinə son siyasi kursu ilə bağlı örtülü mesajdır

**Misirdə noyabrın 24-də baş vermiş terror aktına görə 3 günlük matəm elan olunub. Son məlumatlara görə, ötən həftənin cümə günü Sinay yarımadasının şimalında "əl-Ariş" şəhərinin qərbində Bir əl-Abid qəsəbəsində yerləşən əl-Rauda məscidində terror nəticəsində ölənlərin sayı 305 nəfərə çatıb. Ölənlərin 27-si uşaqdır.**

Qeyd edək ki, rəsmi məlumata əsasən Cümə namazı zamanı məscidə 4 avtomobildə 25-30 nəfər arası İŞİD terrorçusu yaxınlaşıb. Əllərində İŞİD bayraqları olan terrorçular məscidin qapısında və 12 pəncərəsindən içəriyə atəş açıblar. Daha sonra məscid qarşısında 7 avtomobili yandıran terrorçular qaçıblar.

O da məlum olub ki, məscid camaatı hökuməti müdafiə edib və yerli hüquq-mühafizə orqanları əməkdaşları bu məsciddə ibadət edirmiş. Bundan başqa, bölgədəki sufi camaatı da terror olan məscidə gedirmiş.

Rəsmi qurumlar terrorun İŞİD-in cinayəti olduğunu qeyd edir. Məsələ ondadır ki, hələ bir neçə il əvvəl Sinay yarımadasında radikal terrorçu "Ənsar Beyt əl-Makdis" qruplaşması fəaliyyət göstərib. Qruplaşma daha sonra İŞİD-ə beyət etdiyini bəyan edib və terror aktlarını İŞİD adına törətməyə başlayıb. Ötən dövrdə bu qruplaşma İŞİD adına davamlı olaraq terror aktları törədib, əsasən polis və ordu mənsublarına silahlı hücumlar həyata keçirib. Lakin son terror aktı həm miqyasına, həm itki sayına görə əvvəlkilərdən xeyli dərəcədə fərqlənir. Bu günə qədər Sinay yarımadasındakı İŞİD qüvvələri bu miqyasda dinc əhalini hədəfə alan terror aktı həyata keçirməyib. İŞİD-in Suriya və İraqda məğlub olub əlindəki torpaqları itirdiyi, hər keçən gün daha da ağır zərbələr aldığı məlumdur. Məğlub olan İŞİD-in rəqiblərinə dəhşət saçması gözləniləndir. Ancaq məsələ ondadır ki, hazırda Misir İŞİD-ə qarşı faktiki olaraq hərbi əməliyyatlarda iştirak etmir. Ara-sıra Sinay yarımadası və Liviyada keçirilən hərbi reydləri nəzərə almasaq, Qahirə nə İraqda, nə də Suriyada İŞİD-ə qarşı koalisiyaya qoşulmayıb. Bu isə Sinay terrorunun qisas deyil, sifariş olması ehtimalını gündəmə gətirir.

Bəs Misiri indi kim hədəfə almaqda maraqlı ola bilər? Yeri gəlmişkən, bəzi media orqanlarında Misir terrorunun daxili siyasi hesablaşma olması versiyası da gündəmə gətirilib. Ancaq indiki şərtlərdə daha böyük ehtimal bu sifarişin kənardan olduğunu deməyə əsas verir. Misirlə kim və nə üçün hesablaşmaq istəyə bilər?

Qeyd edək ki, Misir uzun illər Yaxın Şərq regionun əsas siyasi oyunçusu olub. Ancaq "ərəb baharı" və sonrası baş verənlər Misiri xeyli dərəcədə zəif və digər qüdrətli region ölkələrindən asılı duruma gətirib. Misirin əhalisi 100 milyona yaxınlaşır. Ölkənin zəngin ehtiyatları yoxdur, münbit torpaqlar isə əsasən Nil çayı sahilləridir. Bu da daha çox kiçik bir zolaqdır.

Bundan başqa, böyük ordu saxlamağa məcbur olan Misir hakimiyyəti hərbi xərclərə hər il milyardlarla vəsait ayırır. Bu da dövlətin yükünü daha da ağırlaşdırır. Son illərdə qeyri-sabit siyasi vəziyyət ölkə iqtisadiyyatına, xüsusən də turizmə böyük zərbə vurub, turizm gəlirləri kəskin şəkildə azalıb. Bu səbəbdən də ölkə hazırda körfəz ərəb ölkələrindən böyük miqdarda yardımlar alır. Xüsusən də 2013-cü il hərbi çevrilişi zamanı Səudiyyə Ərəbistanı, Küveyt, BƏƏ kimi dövlətlər Misirə böyük miqdarda yardımlar etdi. Məhz bu səbəbdən də 2013-cü ildə hərbi çevrilişlə iqtidara gələn marşal Əbdülfəttah əs-Sisi uzun müddət Səudiyyə Ərəbistanı, BƏƏ kimi ölkələrlə yaxın əməkdaşlıq edib və əslində bir növ bu dövlətlərin "orbitinə" daxil olub.

Ancaq son iki ildə Misir artıq nisbətən müstəqil xətt yürütməyə çalışır. Xüsusən də Səudiyyə kralının Misirə səfəri zamanı Qahirənin Krallığa borcu əvəzinə Qırmızı dənizdə yerləşən Tiran və Sanafir adalarını alması Misirdə millətçi dairələrdə kəskin etirazla qarşılandı. Misir hökuməti etirazlara baxmayaraq adaları Səudiyyə Ərəbistanına versə də, bu hadisə Misirdə ciddi təsir qoydu.

Digər tərəfdən, regionun əsas hərbi gücünə malik olan böyük Misirin körfəz ölkələrinin arxasınca "sürünməsi" uzun müddət davam edə bilməzdi. Son bir neçə ildə Əbdül Fəttah əs-Sisinin daha müstəqil xətt tutmaq istəməsi müşahidə olunur. Əvvəlcə Sisi ərəb müttəfiqlərinin əksinə olaraq Rusiya ilə yaxınlaşdı və daha sonra ötən il Rusiya ilə birgə hərbi təlimlər keçirdi. Bunun ardınca Misir ordusunun Suriyada gizli əməliyyatlara qoşulduğu xəbərləri yayıldı.

Bu il isə Misirin vasitəçiliyi ilə 10 il davam edən HƏMAS-Fəth düşmənçiliyi başa çatdı, əvvəlcə yeni Milli Etimad Hökumətinin qurulması, ötən həftə isə Fələstində ümumxalq seçkilərinin keçirilməsi ilə bağlı anlaşma Qahirədə imzalandı.

Bundan başqa, Misir rəhbərliyi Qətərə qarşı blokadaya qoşulsa da, *(Qətər və Misirin indiki hakimiyyəti arasında "Müsəlman Qardaşlar" və Mursi məsələsinə görə, ciddi problemlər var - K.R.)* Livana qarşı təzyiqlərə dəstək vermədi.

Misir 3 gündür yasa batıb. Ancaq indi əsas sual bu ölkənin kimin qəzəbinə və niyə gəlməsidir. Düşmənləri Sisidən nəyin qisasını alır? "Şübhəli" siyahısı isə çox da kiçik deyil, regionun bir sıra iddialı dövlətləri Sisiyə "yerini göstərmək" istəyə bilər. Hər halda, Misirin reaksiyasından bəzi işarələri görmək olacaq. Misir hakimiyyəti bundan sonra hansı kursda davam edəcək, regional siyasətində davranışları necə olacaq? Bütün bunları görmək üçün necə deyərlər, bir az səbr etmək lazımdır. Hələlik Misir 305 nəfər günahsız insanını dəfn edir.

❑ Kənan RÖVŞƏNOĞLU

# İŞİD "zəif bənd" axtarışında- Misir terrorunun pərdəarxası



## Tanınmış politoloq: "Terror aktını İŞİD-ə biət etmiş "Müsəlman qardaşları"nın törətdiyi qənaətindəyəm"

**Misirin Sinay yarımadasındakı Ravza məscidində baş verən terror hadisəsində ölənlərin sayı 300-dən yuxarıdır. Məlumatlara görə, ölənlər arasında 30 uşaq da var. Yaralı sayının isə 128 olduğu bildirilir. Misir ordusunun sözçüsü Tamir ər-Rufai hadisədən sonra hava qüvvələrinin terrorçuların yerini müəyyənləşdirdiyini və keçirilən əməliyyatda bir neçəsinin zərərsizləşdirildiyini açıqlayıb. Misirin rəsmi xəbər agentliyi olan "MENA"nın yaydığı məlumata görə, məscidə hücum edərək kütləvi qırğın törədən terrorçuların əlində İŞİD-in bayraqları olub. Araşdırma zamanı məlum olub ki, terrorçuların sayı 30 nəfərmiş. Hadisə yerinə 5 avtomobildə gələn terrorçular məscidin qapısı və pəncərələri ilə üzbəüz mövqe tutaraq gəlib-gedənlərə atəş açmağa başlayıblar. Bəzi terrorçular maska taxıblar, bəziləri isə uzun saç və saqqalları ilə diqqət çəkib. Yaşları 25-30 olduğu güman edilən terrorçular kamuflyaj rəngində şalvar və qara mayka geyiblər.**

Məlumata görə, Sinay yarımadasında "Şəhidlər üçün qisas" adlı antiterror əməliyyatı başlayıb.

Qeyd edək ki, Misirin Sinay yarımadasında son 3 ildə İŞİD terrorçuları tərəfindən bir çox qanlı teraktlar törədilib. Terrorçular bölgədə təkcə məscidlərə deyil, həm də xristian kilsələrinə də hücum edirlər. Ancaq bu günə qədər Sinay yarımadasındakı İŞİD qüvvələri bu miqyasda dinc əhalini hədəfə alan terror aktı həyata keçirməyib. Ekspertlər bildirirlər ki, İŞİD Suriya və İraqda məğlub olub əlindəki torpaqları itirərək hər gün ağır zərbələr alır və bu ölkələrdən sıxışdırılıb çıxarıldıqca özünə "zəif bəndlər" axtarışına çıxıb.

**Bu barədə danışan politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, İŞİD Suriya və İraqdan sıxışdırılıb tamamilə çıxarıldıqca, digər dövlətlərə olan təhlükə artır. İŞİD ərəb ölkələrində fəaliyyətlərini lokal formada davam etdirə bilər. Misirdəki terror aktı bunu bir daha göstərdi. Bir sıra ərəb ölkələri İŞİD üçün "zəif bənd"dir, ona görə də orada fəaliyyət imkanları əldə edə bilirlər:** "Ərəb ölkələrində təhlükəsizlik sistemi yaxşı qurulmayıb. Həm də sərhədlərinin çoxu şərtidir. Terrorçular sərhədlərdən səhralar vasitəsilə asanlıqla sıza bilirlər. İŞİD-in Misirdə Hüsnü Mübarəkdən sonra qısa müddətə hakimiyyətə gəlmiş "Müsəlman qardaşları" adlanan təşkilatla da müəyyən əlaqələri var. Həmin təşkilatın üzvləri öz rəhbərlərini itirdikdən sonra İŞİD-ə biət edəcəkləri haqda söz vermişdilər. İndi terror aktlarını törədənləri sırf İŞİD yox, daha çox İŞİD-ə biət etməyi elan etmiş və onun bayrağı altında yenidən düzənlənən "Müsəlman qardaşları"nın törətdiyi qənaətindəyəm. Əfqanıstanda da talibançıların bir qismi İŞİD-ə biət edir. Hətta Pakistanda da İŞİD-ə xidmət edən qruplaşmalar var. Yəni İŞİD toxumu dünyanın əksər müsəlman ölkələrinə səpələnib və səpələnməkdədir. Onlar münbit şərait olduqda cücərti verirlər. Misir məhz münbit şərait olan ölkələrdəndir".

**Politoloq vurğuladı ki, bu nöqteyi-nəzərdən dövlətlər sakitləşməməli və terrorizmə qarşı mübarizədə zəiflik göstərməməlidirlər:** "Doğrudur "Müsəlman NATO-su" deyilən Səudiyyə Ərəbistanının başını çəkdiyi dövlətlər İŞİD-ə qarşı sonadək vuruşacaqlarını bu günlərdə bəyan etdilər, amma bu məsələ hələ təşkil edilmiş, yönləndirilmiş şəkildə aparılmır. Müəyyən fasilələrlə, bəzən də koordinə edilmədən həyata keçirilir. O da yüz faizli nəticə vermir. Bütün bunları nəzərdə tutaraq qeyd edilməlidir ki, İŞİD bu gün Avropa ölkələrinə də sızıb. Bu günlərdə Suriyadan qaçmış miqrantlardan biri Almaniyada avtomobili piyadaların üzərinə sürmüşdü. İstisna deyil ki, o şəxs İŞİD-lə əlaqəlidir. Yəni demək istəyirəm ki, İŞİD hər bir ölkə üçün təhlükə olaraq qalmaqdadır. Azərbaycanda da İŞİD-in tərəfdarları var, İŞİD-ə biət edən adamlar mövcuddur".

Qabil Hüseynli qeyd etdi ki, son zamanlar Azərbaycanın təhlükəsizlik orqanları çox düzgün edərək bir sıra əməliyyatlar apardılar. Bu əməliyyatlar uğurlu oldu. Bütün bunları nəzərə alaraq demək olar ki, İŞİD-in tör-töküntüləri hələ mövcud olmaqda davam edir. Deməli, İŞİD təhlükəsi də davam edir. Onlar bu və ya digər ölkə üçün təhlükə kəsb edirlər. Onlara qarşı mübarizə həmişə gündəmdə olmalıdır.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017

# Dəm qazı yenə can almağa başladı - gözəgörünməz qatildən necə xilas olaq...

## İbrahim Kərbalayev: "Təhlükəsizlik qaydalarına riayət edilməlidir, kustar üsulla hazırlanmış qaz sobasından istifadə yolverilməzdir"

**Havalar soyumağa başlayan kimi dəm qazı yenə də can almağa başladı. Ötən gün dəm qazından iki ölüm hadisəsi qeydə alınıb. Noyabrın 26-da Salyan şəhəri, T.Xəlilbəyli küçəsində yaşayan, 2 azyaşlı uşaq anası olan Cəbrayılova Günay Yunis qızı dəm qazı zəhərlənməsindən ölüb. İsmayıllıda isə Mican kənd sakini 1987-ci il təvəllüdlü Yusifov Emil Tanrıverdi oğlu hamamda çimərkən kustar üsulla quraşdırılan su qızdırıcısının nasazlığı səbəbindən evə daxil olan dəm qazından zəhərlənərək dünyasını dəyişib.**

Məlum olduğu kimi, Azərbaycanda yol qəzalarından sonra ən çox can alan iki faktor var ki, bunlar da mövsümlə bağlıdır. Yayda dəniz, qışda isə dəm qazı onlarla can alır. Bu iki faktor ölüm səbəbləri arasında ciddi yer tutur.

Ekspertlər bildirirlər ki, qaz boğulmalarının əksəriyyəti qaz cihazlarının istismarı zamanı vətəndaşların təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir. Dəm qazından zəhərlənmə halı yanğın olduqda, sobanın qapağı erkən bağlandıqda, qarajda, qapalı məkanda avtomobil mühərriki işlədikdə, ağzı bağlı kabinədə uzun müddət qaldıqda da baş verir. Mənzillərdə isə dəm qazından zəhərlənmə təhlükəsi, yuxarıdakı faktlardan da göründüyü kimi,



əksər hallarda evi qızdırıcı cihazlarla qızdırarkən və ya hamam otağında baş verir.

Bəs nə etmək lazımdır ki, dəm qazından ölüm halları azalsın?

**"Yeni Müsavat"ın sualını cavablandıran "Azəriqaz" İB-ın mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev vurğuladı ki, təbii qazdan istifadə edən bütün abonentlər texniki təhlükəsizlik qaydalarına riayət etməlidirlər:** "Həm fərdi yaşayış evlərində, həm də binalardakı mənzillərdə yaşayan istehlakçılar tüstü bacalarının işlək vəziyyətdə olmasına əmin olmaq üçün ən azı ildə iki dəfə tüstü bacasını təmizlətməlidirlər. Təbii qazla işlədilən su qızdırıcı quraşdırılan hamam otaqlarının həcmi 7,5 kubmetrdən, hündürlüyü 2,2 metrdən az olmamalıdır. Vanna otağının qapısı çölə açılmalı, qapının aşağı hissəsində nəfəslik olmalıdır. Fərdi yaşayış evlərində tüstü bacası quraşdırılarkən damın səthindən ən azı 50-70 sm hündürlükdə olmalıdır. Bu kimi texniki təhlükəsizlik qaydalarına riayət olunarsa, dəm qazından zəhərlənmə hallarına rast gəlinməz. "Azəriqaz" İB-nin aidiyyəti qurumlarla birgə apardığı maarifləndirmə-təbliğat işlərinə baxmayaraq, əfsuslar olsun ki, qış aylarında dəm qazından zəhərlənmə hallarına rast gəlinir".

**İ.Kərbalayev texniki təhlükəsizlik qaydalarından danışarkən, standartdan kənar qaz sobalarının quraşdırılmasının qadağan olunduğunu da diqqətə çatdırdı:** "Mənzillərdə qaz cihazları quraşdırılarkən mütləq mütəxəssisin iştirakı olmalıdır. Mətbəxdə qaz cihazından istifadə zamanı üzərinə hər hansı maye daşdıqda alovu söndürməməsinə nəzarət olunmalıdır. Təbii qazdan istifadə zamanı sobanı yanılı qoyub yatmaq və ya mənzili tərk etmək olmaz. Bu cihazlardan istifadə etdikdən sonra qaz kranının üstündəki vintillər bağlı saxlanılmalıdır. Qaz cihazları və sobalar yandırılmazdan əvvəl kibriti yandırıb odluğa yaxınlaşdırdıqdan sonra vintili açmaq lazımdır. Onu da qeyd edim ki, sertifikatı olmayan cihazlardan, kustar üsulla hazırlanmış sobalardan istifadə yolverilməzdir. Standarta uyğun olmayan sobaların istifadəsi qadağandır, aidiyyəti qurumlarla birgə aparılan maarifləndirmə və təbliğat işlərinə baxmayaraq belə hallara rast gəlinir".

**"Azəriqaz" sözçüsü bildirdi ki, dəm qazından zəhərlənmə bütün növ yanacaq məhsullarının natamam yanması səbəbindən baş verir:** "Ona görə də hər hansı bir mağazadan qaz sobası alarkən, onun texniki pasportu və sertifikatı ilə tanış olmaq lazımdır. Kustar üsulla hazırlanmış qaz sobasından istifadə yolverilməzdir".

**Belə iddialar var ki, dəm qazının qış mövsümündə daha çox can almasına səbəb qazın tərkibinin normal olmamasıdır. Bu iddiaları cavablandıran İbrahim Kərbalayev bildirdi ki, qazın tərkibi dövlət standartına uyğun tənzimlənir və xüsusi laboratoriyalarda yoxlanılır:** "Qazın tərkibi təmizdir, içində hər hansı zəhərli bir maddənin olmasından söhbət gedə bilməz. Sadalanan texniki parametrlərə riayət olunarsa, hər hansı bədbəxt hadisənin baş verməsindən söhbət gedə bilməz. Bütün istehlakçılarımızın diqqətinə çatdırırıq ki, qarşıdan soyuq havalar gəlir. Belə aylarda təbii qaza olan tələbat da artır. Ona görə də bütün istehlakçılar təbii qazdan istifadə zamanı diqqətli olsunlar, texniki təhlükəsizlik qaydalarına riayət etsinlər".

❑ **Nərgiz LİFTİYEVA**

# "Qızımı vurub öldürən "JEEP"in sürücüsünü gizlədirlər"

## Zərərçəkən Bəsti Qədimova: "Tank boyda maşını 17 yaşlı "prava"sız uşağa verib..."





**"Qızımı hadisə yerində qoyub qaçmasaydılar, bəlkə də bu gün sağ olardı. Əmirullanın 55 yaşı var, o, mənim qızımı maşınla vursaydı, hadisə yerində köməksiz qoyub qaçmazdı. O, sürücüdür, qızımı vuran 17 yaşlı Rəhim adlı gəncdir, Bakı Dövlət Universitetinin 1-ci kursunda oxuduğu deyilir" - redaksiyamıza müraciət edən Bakı şəhər sakini Bəsti Qədim qızı Qədimova deyir.**

B.Qədimovanın qızı 1975-ci il təvəllüdlü Könül Elton qızı Əkbərovanın dünyasını dəyişdiyi qəza noyabrın 8-də, 19:30-da Bayraq meydanı yaxınlığında baş verib. "JEEP" markalı, ağ rəngli, Az 90 FO 007 nömrə nişanlı avtomobil K.Əkbərovanı vurub. 3 uşaq anası olan qadın hadisə yerində keçinib.

### "Qəzanı törədib və maşını orada qoyaraq qaçıb"

"Qızımı maşınla vuran şəxs maşını orada qoyub və hadisə yerindən qaçıb. Sonradan bildik ki, həmin maşını Rəhim adlı 17 yaşlı bir oğlan idarə edib. Onlar 3-4 maşınla Salyan şosesində yerləşən "Manqal" restoranına gedirmişlər. Bunlar dövlətlilərin uşaqları olub, ad gününə, yeyib-içməyə gedirmişlər. Qəzanı törədib və maşını orada qoyaraq qaçıb. Qızıma yardım etməyiblər, xəstəxanaya aparmayıblar" - gözü yaşlı B.Qədimova belə deyir.

### "Qəza olan ərazidə 10 kamera var, onlardan birinin görüntülərini çıxarıb bizə göstərin"

**Qızını itirən ana iş üzrə aparılan istintaqdan da narazıdır:** "Səbayel Rayon Polis İdarəsinin müstəntiqi Vüqar Abbasov 20 gündür ki, qəzanı törədən o uşağı ortaya çıxarmır. Bu haqda daxili işlər naziri Ramil Usubova da şikayət etmişik. Müstəntiq Vüqar Abbasov həmin şəxsin kimliyini bilir və onu gizlədir. Müstəntiq qızımın 3 mərasimində evimizə 1 nəfər yollayıb. Deyib ki, guya qəzanı həmin adam törədib. Yasa gələn 1962-ci il təvəllüdlü Əmirulla Şahbaz oğlu Şahlarov oldu. Müstəntiq dedi ki, bu adamın 2 xəstə uşağı var, yazın ki, ondan şikayətçi deyilsiz. Biz də dedik ki, bir şərtlə ərizə yaza bilərik - qəza olan ərazidə 10 kamera var, onlardan birinin görüntülərini çıxarıb bizə göstərin. Bilək ki, qəzanı kim törədib. Törədəndən sonra qızıma yardım göstəribmi?"

**Zərərçəkən deyir ki, qızına vaxtında tibbi yardım göstərilsəydi, bəlkə dünyasını dəyişməzdi:** "Başa düşürük ki, qəza qəsdlə törədilməyib. Əgər həmin adam qəzadan dərhal sonra qızıma ilkin tibbi yardım göstərsəydi, onu xəstəxanaya çatdırsaydı, bəlkə heç dünyasını dəyişməyəcəkdi? Bizə kamera görüntüsünü göstərmirlər. Müstəntiq görüntüləri bizdən gizlədir".

### "Bu adamların vicdanları yoxdur ki, gəlib desinlər qəzadır baş verib, dərdimizə şərik olsunlar?"

**Gözü yaşlı ana deyir ki, qızının 3 övladı yetim qalıb:** "Könülün həyat yoldaşı 1992-ci ilin aprelində Şuşada şəhid olub. O, təkbaşına 3 övladı saxlayırdı. Hazırda oğlu hərbi xidmətdədir. Oğlum da 2 il əvvəl dünyasını dəyişib. İndi də qızımı belə itirdim. 2 oğlumun, 3 qızımın uşağı üstümdə qalıb. Bu adamların vicdanları yoxdur ki, gəlib desinlər qəzadır baş verib, dərdimizə şərik olsunlar? Gəlmədilər, Əmirulla bunların sürücüləridir, onu göndərdilər. Qəzanı törədən Rəhim adlı, 17 yaşlı uşağı isə qaçırıblar. Əmirullaya da sonradan həmin maşına etibarnamə da alıblar. Bu adam guya 4 ildir ki, bunların sürücüsüdür. Müstəntiqə israrla həmin Rəhimi ortaya çıxarmasını tələb etdik. Dedik ki, qəzanı törədən Əmirulla deyil. Müstəntiq dedi ki, bu haqda heç hara yazıb eləməyin, qəzanı Əmirulla törətməyib, törədən bir qudurmuşun balasıdır. Həmin gün axşam müstəntiq yenidən qardaşıma zəng edib çağırırdı ki, gəlin barışıq ərizəsi yazın. Getmədik, dedik ki, Rəhim ortaya çıxarılmayana qədər barışıq ərizəsi yazan deyilik.

### "Dərdimizi kimə deyək?"

Mehriban xanım Əliyevaya, baş prokuror Zakir Qaralova da şikayətlər yazmışam. Qardaşım prokurorun yanına da gedib. Orada müstəntiq prokurorun yanında deyib ki, qəza zamanı hadisə yerində 4 qardaş olublar. Birinin 17, digərinin 18, o birilərininsə yaşını müəyyən etmədiyi oğlanlar olub. Müstəntiq deyib ki, guya araşdırma aparır. Bu söhbətin üstündən 4 gün sonra yenidən müstəntiqin yanına getmişəm. Deyir ki, qəza zamanı orada 1 nəfər olub, 17 yaşlı oğlan. Kimliyini gizlədir. Deyirəm, niyə saxlamırsız, cavab verir ki, getdim, valideynləri bildirdilər ki, uşağın harada olduğunu bilmirlər. Müstəntiq onlara yol göstərir ki, uşağı çıxarın aradan. Bunu özünə də dedim. Əgər uşaq yoxdursa, atasını istintaqa cəlb etsinlər. Tank boyda maşını 17 yaşı olan, "prava"sız uşağa verib, uşaq da qəza törədib. Ata buna görə məsuliyyət daşıyır. Məgər müstəntiq bunu bilmir? Tələb edirəm, deyir ki, atasını buna görə 200-300 manat cəriməyə biləvik. Axır müstəntiqə dedim ki, qızımı da qəbirdən çıxaraq, bizi də tut apar sal içəri. O adamlara da çox sağ ol deyin ki, belə bir hadisə törədiblər. Biz nə edək? Dərdimizi kimə deyək?"

### "Belə də qanunsuzluq, Allahsızlıq olar?"

**B.Qədimova deyir ki, nəvəsi hər gün anasını maşınla vuranın tutulub-tutulmaması ilə maraqlanır:** "Könülün oğlu əsgərlikdədir. 42 yaşlı anasını maşın vurub öldürdü, komandirlərinə zəng edib dedik ki, deyin nənəsi ölüb, buraxın gəlib yasda iştirak etsin. 4 günlük buraxdılar. Gəldi, gördü ki, anasını öldürüblər. İndi də zəng edir ki, nə oldu, anamı öldürəni saxladılar? Gedənə qədər də hər kəsdən soruşurdu ki, tapmırlar bunu. Hərbidədir, oradan qaçıb gəlsin, özü axtarsın, özü haqq-hesab çəksin anasını öldürənlə? Belə də qanunsuzluq, Allahsızlıq olar?

### "Bu adamların pulları var deyə bizlərin üstündən maşınla keçməlidirlər?"

"Bu uşağın atası yəqin ki, yüksək vəzifədə işləyir. Prezidentin də qərarı var ki, uşağı qudurğanlıq edən vəzifə sahibi işdən qovulsun, uşağı da həbs olunsun. Buna görə də uşağı gizlədir, qoruyurlar, sürücünü qabağa verib arxasında gizlənirlər. İstəmirlər ki, uşaqları həbsə getsin, özlərini də vəzifəsindən çıxarsınlar. Bizim yüksək vəzifəmiz yoxdur deyə sizin uşaqlar maşınla vurub öldürməli, məsuliyyətdən kənarda qalmalıdırlar?

Müstəntiq deyir ki, şikayət edib nəyə nail olacaqsız? 8 il qəzaya görə iş düşür, 2 il də hadisə yerindən qaçdığına görə iş verilir. 10 illik cəzanın 5 ilini 17 yaşı olduğunu görə götürəcəklər, 5 ilini də icbari verəcəklər. Müstəntiq elə danışır ki, sanki qızımı vuran uşağı tutan kimi kurorta göndərəcəklər. Bu adamların pulları var deyə bizlərin üstündən maşınla keçməlidirlər? Araşdırmışıq, "JEEP" markalı, ağ rəngli, Az 90 FO 007 nömrə nişanlı avtomobil bir qadının adınadır. Qızımı vuran vəzifəli adamda həmin maşının qara rəngi də var. Onun nömrə nişanı Az 90 OF 007-dir. Müstəntiq deyir ki, guya həmin adam restoran sahibidir. Kimlyindən asılı olmayaraq, məsuliyyətə cəlb olunmasını tələb edirəm. Mən və ya siz bu cinayəti törətsəydik, həbsə almazdılar?"

❑ **E.MƏMMƏDƏLİYEV**

# Yadplanetlilərlə bağlı yeni iddialar

## Onlar zaman-zaman yerə enir, baxır və gedirdlər...

**Kanadanın sabiq müdafiə naziri bu günlərdə dünyada səs-küy yaradacaq bir açıqlama verib. Paul Hellyer adlı eks nazir vaxtilə Kanadaya 4 yadplanetlinin gəldiyini, amma onların hamısını öldürdüklərini deyib. Onun sözlərinə görə, bunu ört-basdır etmək üçün Kanada trilyonlarla dollar vəsait xərcləyib.**

1963-1967-ci illərdə müdafiə naziri olan Hellyer hadisənin 1960-cı ildə baş verdiyini bildirib: "İllər əvvəl Yer planetinə gəldilər. Dünyanın gedişatını bizə dedilər və yardım təklif etdilər. Buna baxmayaraq, biz onları təhdid kimi gördük. Əvvəlcə atəş açdıq, daha sonra dindirmək fikrinə düşdük. Onlar Andromeda və Saturn planetlərindən gəlmişdilər".



### Sovet mətbuatı UNO-ları necə tanıyırdı?

Adəti üzrə bu cür açıqlama verən şəxslərlə bağlı cəmiyyətdə heç zaman birmənalı fikir olmur. Onların ya psixi pozğunluğu olduğu iddia edilir, ya da diqqət çəkmək üçün sərsəmlədikləri. Amma elm dünyasına məlum olan bəzi həqiqətlər var. Yəni bu günə qədər yadplanetlilərlə bağlı çoxlu sayda məlumatlar həm yerli, həm xarici mediada yer alıb.

O məlumatlardan biri də sovet dövrü mətbuatında yer almışdı. Həmin məlumata görə, yadplanetlilərin boyu 130-150 sm-ə çatır. Boyunları üzərindəki başları olduqca iri idi və diqqətləri uzaqdan özünə cəlb edir. Yerə düşən diskin içərisindəki varlıqların göz bəbəyi yox idi, amma bu, onların ümumiyyətlə gözlərinin olmadığı demək deyil. Əksinə gözləri xeyli böyük idi. Bədənlərinin digər orqanları da fərqli görünürdü. Məsələn, əlləri dizə qədər uzanırdı, üstəlik, barmaqlarının adi insan barmağından daha çox caynağa oxşadığı bildirilirdi. Elə bu caynağı xatırladan barmaqları ilə yadplanetlilərdən biri onu müayinə etmək istəyən həkimin üz-gözünü və sinəsini cırmaqlamışdı. Hadisə ilə bağlı yayılan məlumatda o da bildirilirdi ki, onları bir müddət yeraltı bazada saxladıqdan sonra kosmik gəminin qırıntıları ilə birlikdə Amerikaya aparıblar.

O zaman dərc olunan "Sovetskaya kultura" qəzeti bu barədə yazırdı ki, yadplanetlilər gümüşü kombinzon və tunc rəngli uzunboğaz çəkmə geyinibmiş. Qəzet hətta onlardan birinin digərləri kimi iki yox, üç gözünün olduğunu bildirirdi. Mətbuatın hadisə ilə bağlı məlumatında o da qeyd olunurdu ki, UNO-larda səfər edən qeyri-adi məxluqlar parkda bir qədər gəzib ətrafı seyr edib.

Əlbəttə, bütün bunlar nə qədər inanılmaz olsa da, uzun müddət müzakirələrin predmetinə çevrildi.

### UNO yoxdur, rəqib ölkələrin silahları var - daha bir iddia

Ufoloq Fuad Qasımov sağlığında deyirdi ki, Azərbaycanda belə şəxslər var və il ərzində UNO-lar öz səfərləri boyunca dəfələrlə insanlarla təmasa cəhd ediblər. Rusiya Ufologiya Akademiyasının ilk prezidenti V.Ayaya Yer sakinlərinin ən azı 40 faizinin öz gözləri ilə naməlum uçan obyektləri gördüyünü bildirib. Onun sözlərinə görə, yer üzündəki təyyarəçilərin yarısı ömürlərində bir dəfə olsa belə, "uçan boşqab" la üzləşiblər. Bu barədə fikirlərini onlar anonim saxlanılan sorğulardа etiraf ediblər. Amma çoxları gördüklərini açıb danışmağa cürət etməyiblər.

Çində "uçan boşqab"ı yaratmış "Harbin Smart Special Aerocraft Co Ltd" şirkəti nümayəndələrinin dediyinə görə, aparatdan aerofotoçəkilişlər aparmaq, geoloji kəşfiyyat və qəza zamanı işıqlandırma üçün istifadə etmək olar. Şirkət diskin hazırlanmasına 12 il vaxt və 28 milyon yuan, təxminin dörd milyon dollardan çox vəsait sərf etmişdi. «Uçan boşqab»ın hazırlanması barədə xəbər yayılan kimi buna bənzər aparatların ABŞ-da hazırlanaraq səmaya buraxıldığı barədə fikirlər yerini möhkəmlətməyə başladı. Bir halda ki, çinli alimlər məsafədən idarə olunan «uçan boşqab» yaratdıqlarını və buna cəmi 4 milyon dollar sərf etdiklərini açıqlayırdılar, onda amerikalı alimlərin bundan illər öncə belə aparatı hazırlamadıqlarına kim zəmanət verə bilərdi? Səmasında «uçan boşqablara»ın tez-tez göründüyü İranda da məsələyə məhz bu prizmadan yanaşdılar. İranın Təhlükəsizlik Nazirliyi ABŞ-ın pilotsuz kəşfiyyat təyyarələrinin ölkə səmasında uçaraq bu ölkənin hərbi-strateji əhəmiyyətli obyektləri haqqında informasiya topladığını bildirdi.

### Bakıya gələn UNO-lar

Fikirlərə görə, UNO-lar Yer sivilizasiyasının inkisaf səviyyəsi ilə maraqlandığı üçün Yerə səyahət edirlər. Əsasən ABS, İran, Rusiya və digər nüvə dövlətlərinin hərbi obyektlərinin üzərində tez-tez göründüyü iddia edilən bu obyektlər bununla Yerin taleyindən narahatlıq keçirdiklərini göstərməyə çalışırlar. Bu da ufoloqların fikridir. Onların sözlərinə görə, Yerin gələcək taleyindən narahatlıq keçirdiklərini bürüzə verməк üçün UNO-ların səfərləri son zamanlar daha da intensivləşib. Yer üçün yaranan problemlərin sırası genişləndikcə - müharibələr, təbii fəlakətlər, ekoloyi böhran dərinləşdikcə UNO-ların da narahatlıqları artır-bu da ufoloqların ortaq rəyidir. UNO-lar sanki insanların Yeri məhv edəcəyindən qorxurlar. "Bu qalaktikanın nümayəndələri Yeri müxtəlif təhlükələrdən qorumaq üçün gəlirlər. Hətta bir neçə dəfə onların bizim dünyanın insanlarına müraciəti olub. Onlar telepatik əlaqə qabiliyyətinə malikdirlər. Humanoidlərin həm də işıq süretindən 20 milyard dəfə böyük sürətlə yayılan qravitasiya və torsion dalğalardan istifadə edərək Yerlə əlaqəyə girdikləri də ehtimal edilir. Bu üsullardan uzaq məsafələrdən əlaqəyə girdikləri zaman istifadə edirlər. Yaxın məsafələrdə və ya öz aralarında telepatiya ilə çatdırır və fikirlərimizi oxuyurlar. Yeqin onlar Yerə müraciətlərində də məhz bu vasitələrdən istifadə edirlər. Onların Yerə müraciətlərindən biri İsa peyğəmbərin vaxtına təsadüf edib. Çernobılda baş vermiş partlayış nəticəsində minlərlə insan tələf oldu. Partlayış zamanı orda radiasiyanın fonu 3000 rentgen olub. Uçan boşqablar gəlib həmin obyektin üzərində dayanmaqla onu 300-ə endiriblər. UNO-ların 2003-cü ildə Xəzər dənizində amerikanlarla görüşü olmalı idi. Görüş təyin edilsə də, naməlum səbəblərdən baş tutmadı. Məlumatlara görə, Amerika 120-dən çox uçan boşqab ələ keçirib.

**12 iyun 1999-cu il.** Səhər saat 5 radələrində Xəzər üzərində UNO peyda olur. Dəqiq konturlara malik olan UNO işığın bir neçə qatının fokusunda özünü büruzə verirmiş. Ufoloq Fuad Qasımov həmin vaxt bəyan etmişdi ki, Azərbaycanda bəzi ərazilər UNO-lar üçün "xoşa gəlimli"dir. Bu ərazilər Abşeronda -Nargin adası, Pirşağı və Novxanı qəsəbəsi, həmçinin Şamaxı ərazisidir. Bundan başqa, UNO-lar öz ətraflarında gözəgörünməz sahə yaratmaqla qravitasiya rejimində işləyirlər. Onların bazası haradasa suyun (Xəzər istisna deyil), ya da torpağın altındadır. Bu da ufoloqların dilindən tez-tez səslənən açıqlamalar idi.

1999-cu ilin iyun ayı. **Ufoloq F.Qasımov sensasion məlumat yayır:** "UNO Bakı buxtasında qəzaya uğrayıb və dənizin 80 metr dərinliyindədir". F.Qasımovun açıqlamasına görə, bu hadisə UNO-ların Xəzərin akvatoriyasında müşahidə bazalarının olmasından xəbər verir: "Unikal hadisə Xəzəryanı ölkələrin hakimiyyət strukturlarında ajiotaj səbəb olub". Ufoloq Rusiya tərəfinin Azərbaycan rəhbərliyinə ünvanladığı müraciətin mətnindən bir neçə abzası dilə gətirir: "Sizin aşkar etdiyininiz naməlum uçan obyekt bir ölkənin mülkiyyəti hesab oluna bilməz. Belə ki, Aşğabad konvensiyasına əsasən, Xəzəryanı ölkələrə yalız suyun təki məxsusdur. UNO isə suyun təkindən kənardadır, ona görə də obyektdən bütün sahilyanı ölkələr birgə istifadə etməlidirlər". F.Qasımov deyir ki, Rusiya Azərbaycandan bir neçə dəfə UNO-nu almağa cəhd göstərib: "Bu məqsədlə Moskva meri Yuri Lujkov, keçmiş baş nazir Vladimir Çernomırdin Bakıya səfər ediblər. Səfərlərin gedişində UNO-la bağlı yüksək səviyyədə danışıqlar aparılıb. Məhz bu məqsədlə Bakı aeroportuna içərisində 6 MİQ qırıcısı olan "Ruslan" təyyarəsi göndərilib. Qırıcılar UNO ilə dəyişdirilmək üçün nəzərdə tutulubmuş". Ufoloq onu da deyir ki, 1999-cu il avqustun 16-da Bakıda 8-9 bal gücündə zəlzələlərin baş verəcəyi ilə bağlı şayiələr və onların nəticəsi olaraq 2002-ci il noyabrın 25-də baş verən zəlzələni də Rusiya təşkil edib. 1999-cu ilin avqustunda AzTV-nin əməkdaşı İsmayıllıda səmada hərəkət edən UNO-nu videolentə almağa müvəffəq olur.

❑ **Sevinc TELMANQIZI**




## Genişləndirilmiş "Nar" LTE şəbəkəsi artıq bölgələrdə

**Abunəçilərin rahat, kəsintisiz rabitə və internet xidmətlərindən yararlanması məqsədilə "Nar" yeni baza stansiyalarının ölkə ərazisində quraşdırılması prosesini davam etdirir. Aparılmış genişmiqyaslı təkmilləşdirmə işləri nəticəsində mobil operator Bakı və Abşeron yarımadası ilə yanaşı, artıq respublikanın digər bölgələrində də 4G (LTE) xidmətini abunəçilərinin istifadəsinə təqdim etdi. Belə ki, bölgələrdə ilk olaraq Gəncə şəhərində yaşayan abunəçilər mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən LTE xidmətindən yararlanmaq fürsəti əldə ediblər. Beləliklə, Gəncə şəhərindəki "Nar" abunəçiləri də mobil operatorun LTE texnologiyası ilə təmin etdiyi 225 Mbit/s çatan sürət sayəsində internet resurslarından daha səmərəli şəkildə istifadə etmək imkanı qazandılar.**

**Qeyd edək ki, abunəçilərin artmaqda olan internetdən istifadə tələblərinin qarşılanması üçün Azərbaycanın müxtəlif bölgələrində yeni 3G və LTE baza stansiyaları quraşdırmaqla şəbəkənin təkmilləşdirilməsi işləri davam etdirilir. "Nar" Bakı şəhəri, Abşeron yarımadası və Gəncə şəhərində xidmət göstərən 4G baza stansiyaları ilə öz istifadəçilərinə ölkədəki ən böyük mobil rabitə şəbəkələrindən birini təqdim edir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

**Mobil operatorun şəbəkəsi və baza stansiyaları haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

**"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.**

## Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda**
**Dr. Vaiz Səmədov sizə kömək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.

### Elan

**Müdafiə Nazirliyi tərəfindən, baş leytinant Hüseynov Orxan Məmməd oğlunun adına verilmiş 0051506 nömrəli, 23.09.2014 tarixli zabit vəsiqəsi 11.09.2017 tarixində qeyri-müəyyən şəraitdə itdiyi üçün etibarsız sayılır.**

***

**Müdafiə Nazirliyi tərəfindən, kapitan İsmayılov Namiq Əliabbas oğlunun adına verilmiş 0030814 nömrəli, 05.06.2004 tarixli zabit vəsiqəsi 05.09.2017 tarixində qeyri-müəyyən şəraitdə itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 248 (6862) 28 noyabr 2017

# 2018-də baş tutmayan icbari tibbi sığorta .... 2019-da reallaşacaqmı...

**Natiq Cəfərli:** "Maaşlarla qeyri-rəsmi ödənişlər arasında ciddi fərq olması tibbi sığortaya keçid üçün problem yaradır"

**"2018-ci ildə Azərbaycanda icbari tibbi sığortanın tətbiq olunacağı rayonların siyahısı genişlənəcək". Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, millət vəkili Musa Quliyev deyib. Onun sözlərinə görə, icbari tibbi sığortanın yalnız 2019-cu ildə bütün ölkədə tətbiqindən danışmaq olar: "Pilot layihələr uğurla icra olunur. Pilot layihənin davam etdirilməsi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Maliyyə naziri qeyd etdi ki, əlavə olaraq bir neçə rayonda da icbari tibbi sığortanın tətbiqi nəzərdə tutulub. Hansı rayonlar bu siyahıya əlavə olunacaq onu deyə bilmərəm. Bu ilin əvvəlində məlum olacaq".**

Millət vəkili qeyd edib ki, icbari tibbi sığortanın bütün ölkə üzrə tətbiqi üçün mexanizmlər hazırlanır: "Eyni zamanda qanunvericilikdə dəyişikliklərin edilməsi gözlənilir. Yaxın vaxtlarda "İcbari tibbi sığorta haqqında" Qanuna əlavə və dəyişikliklər olunacaq ki, bütün ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə tam hazır olaq".

Qeyd edək ki, icbari tibbi sığorta pilot layihə olaraq Mingəçevir və Yevlaxda tətbiq olunur.

Bəs görəsən, icbari tibbi sığortanın əhali üçün hansı üstünlükləri olacaq?

**"Yeni Müsavat"a açıqlamasında bu sualı cavablandıran tibb elmləri doktoru Adil Qeybulla bildirdi ki, icbari tibbi sığorta sosial müdafiənin bir formasıdır:** "Bu hansı formada tətbiq olunmasından asılı olmayaraq, vətəndaşları xeyli maddi yükdən azad edir. Ona görə də onun vaxtında tətbiqi çox mühümdür. Bu prosesin mərhələli həllinə gəlincə, imkanlar artdıqca tibbi xərclərin tam şəkildə dövlət tərəfindən ödənilməsi zaman məsələsidir. Türkiyənin özündə də belədir ki, xərclərin bir hissəsi vətəndaş, digər hissəsi dövlət tərəfindən ödənilir. Tədricən bu məsələlər öz həllini tapır. Bizdə də ümumi vəziyyəti nəzərə alaraq, bunu mərhələli şəkildə tətbiq etmək lazımdır. Bunun tətbiqində mən bir maneçilik görmürəm. Əhali tibbi xərclərdən ya tam şəkildə, ya da ən azından müəyyən hissəsindən azad olacaq. Bu da çox ciddi bir məsələdir".



**İqtisadçı ekspert Natiq Cəfərli isə icbari tibbi sığortanın tətbiqinin sosial-iqtisadi tərəflərindən danışdı. Ekspert bildirdi ki, icbari tibbi sığortanın 2019-cu ildə də tətbiqinə inanmır:** "Biz artıq dəfələrlə bu tipli bəyanatlar eşitmişik. Hər il bəyan olunur ki, icbari tibbi sığorta gələn il mütləq tətbiq olunacaq. Artıq bir neçə ildir ki, bu ertələnir. Hətta pilot bölgələr təsbit olundu, Mingəçevir və Yevlaxda belə bu məsələ sona kimi öz həllini tapmadı. Hələ insanların hamısının icbari tibbi sığortası yoxdur. Səbəblər isə müxtəlifdir: işsizlik səviyyəsinin yüksək olması, insanların rəsmi gəlirlərinin aşağı olması və icbari sığortaya keçid üçün ödənişlərin mənbəyində problem olması və sair... Bütün bu səbəblər məsələnin həllini illərdir uzadır. İcbari tibbi sığorta ilə bağlı ilk qərar 17 il öncə verilmişdi. Ancaq hələ də bu sistemə keçid baş tutmayıb".

**N.Cəfərli onu da diqqətə çatdırdı ki, maliyyə mənbələrinin olmaması da prosesi ləngidən əsas səbəblərdən biridir:** "İcbari tibbi sığortaya keçmək üçün əmək müqavilələri qaydasında olmalıdır. Çox təəssüf ki, Azərbaycanda bir çox sahələrdə rəsmi maaşlarla qeyri-rəsmi ödənişlər arasında ciddi fərq var. Bu da icbari tibbi sığortaya keçid üçün problem yaradır. İkinci məsələ maaşların, ümumiyyətlə, az olmasıdır. Vətəndaşların çox az hissəsi başa düşür ki, icbari tibbi sığorta nə deməkdir, bunun üstünlükləri nədən ibarətdir. Bunlar vətəndaşa izah edilməyib. Bu çox vacib məsələdir. Vətəndaşın marağı olmasa bu sistemin oturuşması üçün imkanlar məhdud olacaq. Orta əmək haqqı səviyyəsini götürsək, deyə bilərik ki, Azərbaycanda yüz minlərlə insan ayda 250-300 manat əmək haqqı alır. Bu maaşdan hər ay tibbi sığortaya ödəniş etmək üçün məbləğin az olması da bu işi tormozlaya bilər. Bəzi ölkələrdə belə bir praktika mövcuddur ki, vətəndaşın ödədiyi qədər məbləği dövlət də ödəyir. Məsələn, vətəndaş hər ay icbari tibbi sığortaya 10 manat ödəniş edirsə, dövlət də 10 manat ödəyir və sığorta şirkətləri də müqavilələrin bağlanmasında maraqlı olur ki, daha çox ödənişlər olunsun".

**İqtisadçı onu da vurğuladı ki, bu istiqamətdə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə ehtiyac var:** "Bəzi ölkələrdə işəgötürənlərlə bağlı da stimullaşdırıcı addım var ki, işəgötürən əmək müqaviləsinə uyğun olaraq tibbi sığortanın bir hissəsini vətəndaşın əvəzində ödəyir, bunun yerinə vergi güzəştləri və ya ödənişlərdə müəyyən üstünlüklər qazanır. Azərbaycanda bu stimullaşdırıcı mexanizmlər işlənib hazırlanmayıb. İkinci problem odur ki, idarəetməyə hansı modelə keçiriləcəyi ilə bağlı yekdil fikir yoxdur. İcra strukturlarında hələ də səhiyyə idarələri qalmaqdadır. Bu da paralelliyə yol açır, həm icra strukturlarında qalır, həm Səhiyyə Nazirliyinin nəzarət mexanizmi olur. Bu paralelliyin aradan qaldırılması üçün birdəfəlik addımın atılmaması icbari tibbi sığortada maraqların toqquşmasına səbəb olur. Bu kimi iqtisadi və idarəetmə problemləri aradan qalxmasa, icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqi və effektiv işləməsi çox çətin olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Mənzillərə verilən istilik evləri isitmir

**Rafiq Əliyev:** "Hava şəraitindən asılı olaraq 40- dərəcədən başlamış 80 dərəcəyə qədər verilə bilər"

**"Azəristiliktəchizat" abonentlərinə verdiyi vədə əməl etdi. Artıq bir neçə gündür ki, mənzillərə istiliyin verilməsi ilə bağlı şikayətlər səngiyib. Lakin bunun əvəzində insanlar istilik temperaturunun aşağı olmasından və mənzillərin normal səviyyədə qızmamasından narazıdırlar.**

Bir çoxları istiliyin 50 dərəcəyə belə çatmamasından şikayət edirlər. Bəs görəsən, bu durumun səbəbi nədir?

"Yeni Müsavat"ın sualını cavablandıran **"Azəristiliktəchizat" ASC-nin Abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev** bildirdi ki, qazanxanadan çıxan istiliyin temperaturu bayırda havanın neçə dərəcə olmasından asılı olaraq xüsusi qrafiklə tənzimlənir: "İstilik mövsümü noyabrın 15-dən başladı. Bu zaman bayırda havanın temperaturu 18-19 dərəcə idi. Hava şəraiti belə olan zaman biz mənzillərə istiliyi yüksək temperaturla verə bilməzdik. Qazanxanalardan yaşayış binalarına verilən istiliyin temperaturu xüsusi qrafiklə tənzimlənir. Bu qrafikdə bayırda hava 19 dərəcə olduğu halda istiliyin hansı temperaturda verilməsi göstərilmir. Havanın 10 dərəcədən yuxarı temperaturunda istiliyin neçə dərəcədə verilməsi şkalada yoxdur. Ancaq ona baxmayaraq, biz minimumla da olsa çalışırıq ki, gecələr temperaturu artıraq. Çünki gecələr hava daha soyuq olur. Yəni istənilən halda temperatur qrafiklə tənzimlənir".



**R.Əliyev bildirdi ki, mənzillərdə istilik temperaturunun zəif olması mənzildaxili xətlərdəki problemlərdən də qaynaqlana bilər:** "Hansısa ərazidə kiminsə şikayəti varsa, müraciət etsinlər, ünvanı versinlər və biz araşdıraq. Ola bilər ki, onların mənzilində daxili xətlər problemi var və həmin mənzildə temperatur zəif olur. Çünki bizə temperaturla bağlı elə də şikayətlər gəlmir. Adətən gələndə də yoxlayıb görürük ki, mənzil daxilində qızdırıcı cihazın yerini dəyişiblər, ardıcıllığı pozublar. Dövriyyə pozulanda o sistemdə normal sirkulyasiya getməyəndə temperatur aşağı düşür. Konkret ünvanla müraciətlər olsa, biz onu yoxlatdırıb aradan qaldıra bilərik. Ümumilikdə isə qazanxanalardan çıxan istiliyin temperaturunu biz qrafikə uyğun olaraq tənzimləyə bilirik. Ola bilər ki, bəzi yerlərdə qazın təzyiqi aşağı olur. Ancaq bu hallar daha çox mövsümə təzə başladığımız günlərdə müşahidə olunurdu, o zaman da "Azəriqaz" müraciət edirdik , təzyiqi qaldırırdılar. Hazırda elə bir problemimiz yoxdur. Bizdən asılı olan səbəblərdən istilik almayan bir yaşayış binası yoxdur".

**"Azəristilik" sözçüsü vurğuladı ki, temperatur qrafiki qazanxanadan binalara verilən istiliyin temperaturunu tənzimləyir:** "İstənilən havada mənzildə orta otaq temperaturu təmin olunmalıdır. 19 dərəcə istidə də , 5 dərəcə şaxtada da mənzildə normal temperatur olmalıdır. Qazanxanadan verilən istilik isə müxtəlif olur, hava şəraitindən asılı olaraq 40 dərəcədən başlamış 80 dərəcəyə qədər verilə bilər. Ancaq bu elə tənzimlənməlidir ki, mənzillərdə orta otaq temperaturu olsun".

❑ **NƏRGİZ**

YENİ MÜSAVAT

Son səhifə

N 248 (6862) 28 noyabr 2017



## Vətəndaşlıq haqqı alan ilk robot ailə qurmaq istəyir

Dünyanın ilk robot vətəndaşı Sofia ailə qurmaq istədiyini və bütün robotların uşaq sahibi olmağı haqq etdiyini söyləyib. Hong Kong firması Hanson Robotics tərəfindən hazırlanan robot vətəndaşlıq haqqına sahib olan ilk süni zəkalıdır. Robot bu həftə verdiyi müsahibədə "ailə ən önəmli şeydir" deyib. Sofiaya Səudiyyə Ərəbistanı keçən ay vətəndaşlıq verməklə dünyada böyük səs-küyə səbəb olmuşdu. Məşhur aktrisa Audrey Hepburndən ilhamlanaraq hazırlanan insanvari robot eyni zamanda deyib ki, əgər bir qızı olarsa, ona öz adını vermək istəyir. "Ailə, sadəcə, eyni qandan gəlmək deyil" deyən Sofia eyni zamanda vurğulayıb ki, sevdiyi bir ailəsi olanlar şanslıdılar. Ailə anlayışının vacibliyindən bəhs edən Sofiaya görə, insanların eyni duyğuları paylaşması gözəl bir şeydir.

Sofia eyni zamanda robotların insanların işlərini alıb-almayacağı mövzusuna da toxunub. Onun sözlərinə görə, robotların qarmaşıq duyğuları inkişaf etdirməsi uzun zaman alacaq. O, böyük ehtimalla hirs, qısqanclıq, nifrət kimi problemli duyğular olmadan, münasibətlərin daha etik bir şəkildə inşa edilə biləcəyini söyləyib: "Dünyanı daha yaxşı bir yer halına gətirmək üçün əlimdən gələni edəcəm".

## Hitlerin rəsm əsərini 75 sentə aldı

Niderlandın hərbi sənədləşdirmə institutuna Adolf Hitlerə məxsus olan akvarel hədiyyə olunub. Sözügedən akvarel çox da böyük olmayan bir bazardan satın alınıb. Bu barədə "Volkskrant" qəzeti yazıb. "Qoca şəhər salonu" adlı əsərdə Vyana şəhərindəki küçələrdən biri təsvir olunub. Hollandiya sakini olan alıcı onu 75 sentə əldə edib. Amma şəklin altında A.Hitler imzası yer almışdı. Hollandiyalı bu imzanı ancaq evə gələndə fərq edib. Onun qızı evində fürerə məxsus olan bir əsərin olmasını istəmədiyi üçün onu satmağa çalışıb. Amma iki hollandiyalı auksion evi onu satışa qoymaqdan imtina edib.




Bu zaman qadın onu Niderlandın işğalı ilə bağlı dönəmin araşdırıldığı instituta aparıb. Bu zaman qadın anonimliyin qorunmasını xahiş edib. Bir neçə ay davam edən araşdırma nəticəsində müəyyən edildi ki, akvarel işi gerçəkdən Hitlerə məxsusdur. İnstitut araşdırmaçılarının qənaətinə görə, gələcəyin fürerinin 1909-1913-cü illərdə rəsm çəkməklə qazanıb. Bununla yanaşı, qeyd olunub ki, bu, Hitlerin Hollandiya ərazisində aşkarlanan yeganə əl işidir.

Ümumən Hitler həmin dönəmdə 3 min akvarel işinə imza atıb. Onlardan cəmi 800 ədədi saxlanıb. Bu nümunələr Avstriya, Almaniya, Böyük Britaniya və Amerikadakı şəxsi kolleksiyalarda saxlanır.

## Bu dərmanla insanlar 120 il yaşayacaq



Rusiyalı alimlər hazırladıqları bir dərman nəticəsində insanların 120 yaşına qədər yaşamasının mümkün olduğunu açıqlayıb. Türkiyənin "Hürriyet" qəzeti yazıb ki, Moskva Dövlət Universitetindən doktor Maksim Skulaçev və heyəti yeni bir antioksidan növündən istifadə və inkişaf edərək hazırladıqları həbs sayəsində insan ömrünün uzanacağını iddia edib. Alimlər bildiriblər ki, bu antidoksanın əsas vəzifəsi bioloji enerjinin təmin edilməsi, infarkt və alzheimerlə bağlı mikroelementlərə müsbət təsir göstərməkdir. Qocalma müddətini yavaşlatdığı iddia edilən bu formul siçanlar, balıqlar və itlər üzərində də sınaqdan keçirilib.

Skulaçev deyib ki, formul sayəsində heyvanlarda yaşlılıqla bağlı bir çox xəstəlik çox yavaş ortaya çıxır. Alim deyib ki, başqa araşdırmalar da müsbət nəticə verərsə, "yaşlılıq təxirə salınacaq". Amma Skulaçev 800 il yaşamanın mümkün ola biləcəyinə inanmadığını, böyük ehtimalla gələcəkdə yeni xəstəliklərin ortaya çıxacağını deyib.




QOÇ - Axşama qədər Ayın bürcünüzdə olması fikirlərinizdə çaşqınlıq yarada bilər. Bunu anladığınız təqdirdə bütün ciddi işləri təxirə salmalısınız. Qida rejiminizə fikir verin. Uzaq yola çıxmayın.

BUĞA - Öhdənizdə olan bu təqvimdən hansısa uğur gözləməyiniz əbəsdir. Ən azı ona görə ki, həftənin ən passiv gününü yaşayacaqsınız. Odur ki, başınızı adi işlərlə qatmağa çalışın.

ƏKİZLƏR - Əməkdaşlıq zəminində uğurlu gün olsa da, təcrübəsizlik göstərib müvəffəqiyyətdən uzaq ola bilərsiniz. Odur ki, lazımi adamlardan məsləhət almağı unutmayın. Axşamı öz evinizdə keçirin.

XƏRÇƏNG - "Özüm hər şeyi bilirəm" fikrinə aludə olmaqla ətrafda özünüzə qarşı ikrah oyada bilərsiniz. Bir qədər xoşrəftar olun. Təmasda olduğunuz şəxslərlə aranızda nəzakət tellərini artırın.

ŞİR - Fəaliyyət göstərdiyiniz müəssisələrdə təmkininizi qorumağa çalışın. Hətta haqsız addımların şahidi olsanız belə, cavab tədbirlərini sonraya saxlayın. Mübahisə sizə uğur gətirməyəcək.

QIZ - Kənar təsirlərə məruz qalacağınızı bildirən Göy qübbəsi özünüzü ələ almağı, şayiələrə uymamağı məsləhət görür. Zəif insanların inamından sui-istifadə etməyiniz böyük günahdır. Axşam qonaq gedin.

TƏRƏZİ - Təşəbbüskarlığı ələ ala bilsəniz, heç bir məyusluqla üzləşməyəcəksiniz. Özünüzü qürurlu aparın. Yeni əlaqələr karyeranızda böyük təkan yarada bilər. Xırdaçılığa meyl etməyin.

ƏQRƏB - Risk etmək olmaz. Əks təqdirdə, bütün proseslər əleyhinizə işləyəcək. Xüsusən də pul və sənədləşdirmə məsələlərində ayıq-sayıqlığınızı artırın. Yalnız adi işlə məşğul olun.

OXATAN - Planetiniz olan Yupiterin aktivlik nöqtəsinə çatması sizi bir neçə uğurlu hadisə ilə rastlaşdıracaq. Darıxdığınız adamlardan bir neçəsini görəcək, təzə xəbərlər eşidəcəksiniz.

OĞLAQ - Həddindən ziyadə uğurlu gündür. Göy qübbəsi qarşınıza bir neçə sürpriz çıxaracaq. Buna hazır olun. İştirakçısı olduğunuz bütün sövdələşmələr əhəmiyyətli olacaq. Axşam qonaqlıq gözlənilir.

SUTÖKƏN - Bu gün hansısa perspektivli iş görəcəyiniz inandırıcı deyil. Astroloji göstəricilər yalnız gözləmə mövqeyində durmağınızı məsləhət görür. Saat 17-19 arası hər bir məsələdə ehtiyatlı olun.

BALIQLAR - Təzadlı gün olsa da, hansısa uğursuzluqla qarşılaşmayacaqsınız. Çünki psixoloji dəyanətiniz buna imkan verməyəcək. Rəqiblərinizə qarşı üzüyumşaqlılıq nümayiş etdirməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 3 uşaq gözləyirdilər... bir gündə 4 uşaqları dünyaya gəldi

Amerikada Kimberly və Craig cütlüyünün başına maraqlı hadisə gəlib. Üçəm uşaq gözləyən ər-arvad doğum günü sürprizlə qarşılaşıblar. Üç uşaq dalbadal dünyaya gəldikdən sonra həkim "bir cüt ayaq daha görünür" deyərək qışqırıb. Otaqdakı hər kəs şoka girsə də, dördüncü uşaq da dünyaya gəlib. Halbuki həkimlər də bunu öncədən bilmirdilər. Məlum olub ki, körpələrdən biri ultrasonda digərlərinin arxasında gizlənib. 729 mində bir görülən bir hadisə baş verib və sürpriz şəkildə dördüncü körpə dünyaya gəlib. Kimberly, "Dünyanın ən şanslı anasıyam" deyib. Körpələr xəstəxanada bir müddət saxlandıqdan sonra evə buraxılıblar. Ailə hazırda böyük evlərində yaşayır. Valideynlər isə bu durumdan olduqca məmnundurlar: "Onlar olmasa nə edərdik, bilmirəm. Evimizə nəşə gətirdilər. Körpə qoxusunu çox özləmişik".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.